QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 131 (5851) **23 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Dünyanın diqqəti yenidən Bakıdadır

*"Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına start verildi*



Səh 2

7

**"Biz YAP olaraq öz fəaliyyətimizdə mətbuatla əməkdaşlığa böyük əhəmiyyət veririk"**



6

**Əli Həsənov: "Medianın inkişafı Azərbaycanın bugünkü iqtisadi, sosial, siyasi, mədəni inkişafına tam adekvatdır"**




6

**Mübariz Qurbanlı: Çin ilə Azərbaycan arasında əlaqələr yüksələn xətt üzrə inkişaf edir**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

23 iyul 2019-cu il

# Dünyanın diqqəti yenidən Bakıdadır

## *“Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalına start verildi*

***Avropanın, eləcə də, dünyanın diqqəti yenidən Azərbaycanda - paytaxt Bakıdadır. Mötəbər idman yarışlarına ən yüksək səviyyədə ev sahibliyi edən Bakı “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalına ev sahibliyi edir. Gənclərə Olimpiya hərəkatını tanıtmaq, Olimpiya dəyərləri və ideallarını öyrətmək məqsədi daşıyan Avropa Gənclər Festivalı 14-18 yaş arasında gənc Avropa atletləri üçün yüksək səviyyəli çox idman növlü tədbirdir. Birinci festival 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib. Bu tədbir iki ildə bir dəfə, cüt deyil, tək illərdə qışda və yayda keçirilir. Avropa Gənclər Olimpiya Festivalı Avropa Olimpiya Komitəsinə aiddir və Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur. 2019-cu ildə isə, paytaxt Bakının bu yarışlara ev sahibliyi etməsi həvalə olunub.***





### YARIŞ “ZİRVƏLƏRƏ HAZIRIQ” DEVİZİ ALTINDA KEÇİRİLİR

“Baku Crystal Hall”da keçirilən yarışın açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva iştirakı ediblər. “Zirvələrə hazırıq” devizi altında keçirilən “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalının loqosu olduqca maraqlıdır. “Leo Burnett” brend agentliyinin dizaynerlərindən ibarət yerli heyətin tərtib etdiyi loqo dostluq, ədalətli oyun və tolerantlıq ruhunu gücləndirən müasir, dinamik və çevik brendi əks etdirir. Brendin əsas məqsədi beynəlxalq idman yarışlarına ev sahibliyi edən ölkənin, şəhərin qədim mədəniyyətini, tarixini əks etdirmək, eyni zamanda, gələn il baş tutacaq idman yarışının bundan əvvəlkilərlə müqayisədə fərqini nümayiş etdirmək və milyonlarla insanı bir araya gətirən idman tədbirində “Bax və hiss et!” şüarını nümayiş etdirməkdir. Bakının irs və mədəniyyətini - od və qədim Azərbaycan naxışı olan butanı, birlik və dostluq konsepsiyalarını özündə ehtiva edən loqo, eyni zamanda, Azərbaycan paytaxtının möhtəşəm müasir memarlıq nümunələrini - Alov Qüllələri və Heydər Əliyev Mərkəzini də təsvir edir. Parlaq rəngləri canlandıran bu loqo yarışlara qatılacaq hər bir iştirakçının müsbət enerjisi və Bakının çoxşaxəli gözəlliyini təsvir etdirən əhatəli çalarlar palitrasından ibarətdir. Bu loqo Azərbaycan mədəniyyətinin təzahürü olmaqla yanaşı, Avropa Olimpiya Hərəkatının əsl ruhunu və bütün dünyanı ilhamlandıran, milyonlarla insanı bir araya gətirməyi bacaran idman mübarizəsini əks etdirir.

*Ardı Səh. 3*



# Dünyanın diqqəti yenidən Bakıdadır

## *"Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına start verildi*

Əvvəli Səh. 2

"Bakı-2019"un rəsmi talismanları isə Cırtdan və Bəbirdir. Maraqlı obraz olan Cırtdan öz cəsarətindən və zəkasından ilhamlanır. Qafqaz bəbiri isə Azərbaycanın füsunkar təbiətinin zənginliyini təşviq edəcək. Qafqaz bəbiri Azərbaycan faunasında ən yaxşı tanınan və haqqında geniş məlumat olan heyvan növlərindən biridir. Bu heyvan təbii gözəllik, güc, qorxmazlıq və sürət rəmzidir.

### İDMANÇILAR 135 DƏST MEDAL UĞRUNDA GÜCLƏRİNİ SINAYIRLAR

Paytaxt Bakının 12 idman obyektində yeddi gün davam edəcək mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizəyə qoşulub. İştirakçıların 52 faizi oğlan, 48 faizi isə qızdır. İdmançılar 135 dəst medal uğrunda güclərini sınayırlar. Mükafatçılar üçün, ümumilikdə, 930 medal hazırlanıb. Medalların 300-ü qızıl, 300-ü gümüş, 330-u isə bürüncdür.




lərinin Olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlayıb. Həmin il Hollandiyanın Valkensvard şəhərindəki festivalda 43 ölkənin idmançıları mübarizə aparıblar. Festivalda Azərbaycan komandası 1 qızıl və 2 gümüş medalla ümumi hesabda 17-ci olub. 1995-ci ildə Böyük Britaniyanın Bat şəhərində keçirilmiş növbəti festivalda cəmi 1 gümüş medal qazanılıb. 1997-ci ildə İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra gənc idmançılarımız bu festivallarda daha böyük uğurlar qazanmağa başlayıblar. 1999-cu ildə Danimarkanın Esbyerq şəhərində keçirilmiş festivalda üç bürünc medal qazanan komandamız 2001-ci ildə İspaniyanın Mursiya şəhərində 2 gümüş və 2 bürünc, iki il sonra Parisdə 2 gümüş və 1 bürünc, 2005-ci ildə İtaliyanın Linyano şəhərində 2 qızıl və 4 bürünc medala sahib olub. Azərbaycan ən yüksək nailiyyətinə 2007-ci ildə Serbiyanın paytaxtı Belqradda təşkil olunmuş festivalda 7 qızıl medal qazanmaqla imza atıb. Həmin yarışda ölkəmiz ümumi komanda hesabında 6-cı yeri tutub. 2009-cu ildə Finlandiyanın Tampere şəhərində 3 qızıl, 1 gümüş, 1 bürünc, 2011-ci ildə Türkiyənin Trabzon şəhərində 1 qızıl, 2 gümüş, 2013-cü ildə Hollandiyanın Utrext şəhərində 2 qızıl, 1 bürünc, 2015-ci ildə Tbilisidə 2 qızıl, 1 gümüş, 2 bürünc, 2017-ci ildə Macarıstanın Györ şəhə-











Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunur. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə, voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda, ümumilikdə, 30 oyunçu yer alıb.

### İDMAN SAHƏSİNDƏ GERÇƏKLƏŞDİRİLƏN DÖVLƏT SİYASƏTİ

Qeyd edək ki, Azərbaycan Avropa Gənc-

rində keçirilən festivalda isə, 1 gümüş və 1 bürünc medal qazanılıb. Əlbəttə ki, idman sahəsində gerçəkləşdirilən dövlət siyasətinin nəticəsi olaraq, idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir.

Ardı Səh. 4

# Dünyanın diqqəti yenidən Bakıdadır

## *“Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalına start verildi*



Əvvəli Səh. 3

Bu yaxınlarda Minskdə keçirilən İkinci Avropa Oyunlarında Azərbaycan millisinin 10-cu yerdə qərarlaşması idmanımızın növbəti uğuru oldu. 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız Oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurub.



### İDMAN QURĞULARININ PAYTAXTIMIZDA MÖVCUDLUĞU




### YARIŞLARIN MÖHTƏŞƏM KEÇİRİLMƏSİNƏ ƏSASDIR

Belə yarışların keçirilməsi, onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Bu nəhəng, idman qurğusu müasir memarlıq üslubu, xüsusi gözəlliyi və funksional baxımdan əlverişliliyi ilə seçilir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin, mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Birinci Avropa Oyunlarının təntənəli açılış və bağlanış mərasimləri, eləcə də, atletika yarışları, məhz bu stadionda təşkil olunub. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bu və ya digər idman qurğularının paytaxtımızda mövcudluğu yarışların möhtəşəm keçirilməsinə zəmin yaradır. Qeyd etdiyimiz festival Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Atletlər Kəndi və bir sıra idman qurğularında keçiriləcək.

Avropa Gənclər Olimpiya Festivalı gələcək çempionlar və Olimpiya medalçıları üçün əsl sınaq meydanıdır.








Belə yarışların ölkəmizdə keçirilməsi həm də Odlar Yurdu ilə dünya ölkələrini tanıdır. Elə açılış mərasimində nümayiş olunan “Məşəlin yolu” filmi paytaxtın bütün idman obyektlərinə səyahət öz əksini tapıb. “Qələbə elementləri” səhnə şousunda ekranlarda Bakının fantastik mənzərəsi görünüb. Bu mənzərəni fantastik edən, sadəcə, onun gözəlliyi yox, həm də burada şəhərin bütün tarixi və müasir görməli yerlərinin bir araya gəlməsidir. “Külək haqqında əfsanə” süjeti də Bakının küləklər şəhəri olduğunu göstərir. Bir-birinin ardınca nümayiş olunan süjetlər iştirakçılara ölkəmiz haqqında maraqlı fikirlər aşılayıb. Eyni zamanda, orijinal rəmzlər xalqımız ətrafında mövcud dəyərləri əks etdirib.

Təbii ki, paytaxt Bakı “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalına uğurla ev sahibliyi edəcək.

***Nəzakət Ələddinqızı***

# "Azərbaycan ilə Çin arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Çinə son səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşü zamanı münasibətlərimizin gələcək inkişafı ilə bağlı səmərəli danışıqların aparıldığını qeyd etdi və bu səfər zamanı 10 mühüm sənədin imzalanmasının və Çinin aparıcı şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərin əməkdaşlığın genişləndirilməsi baxımından önəmli olduğunu dedi. Prezident İlham Əliyev bu yaxınlarda Çinin Sian şəhərindən Azərbaycana yük qatarının gəlməsini əməkdaşlığımızın iqtisadi, nəqliyyat sahələrində yaxşı perspektivlərə malik olmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı münasibətlərimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin rolunu qeyd edərək Çinin Xarici İşlər nazirinin bu il ölkəmizə səfərinin əlaqələrimizin yaxşı göstəricisi olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırdı. Sun Tao qeyd etdi ki, Çin Xalq Respublikası Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən əlaqələrimiz uğurla inkişaf edir. Qonaq qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində ölkəmizdə bütün sahələrdə ciddi uğurlar qazanılıb.

Sun Tao bu ilin aprelində Pekində keçirilən "Bir kəmər, bir yol" beynəlxalq forumunda Prezident İlham Əliyevin iştirakının önəmini qeyd etdi. O, bu səfər zamanı Çin Xalq Respublikasının Sədri ilə Azərbaycan Prezidenti arasında əlaqələrimizin genişləndirilməsi ilə bağlı mühüm razılaşmaların əldə edilməsinin əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi. Görüşdə iki ölkənin hakim partiyaları arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu və bu çərçivədə gənclərin, elm adamlarının və ictimai xadimlərin səfər mübadilələrinin həyata keçirilməsinin vacibliyi qeyd edildi.

# "Azərbaycan beynəlxalq idman aləmində güclü mövqelərə malikdir"

*Prezident İlham Əliyev Avropa Olimpiya Komitələrinin prezidentini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiçi qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirdi. Yanes Kosyançiç XV Avropa Gənclər Yay Olimpiya Festivalının yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək bu tədbirin böyük önəm daşıdığını və gələcək Olimpiya medallarının qazanılması üçün çox yaxşı hazırlıq prosesi olduğunu dedi. Yanes Kosyançiç Azərbaycanın beynəlxalq idman aləmində güclü mövqelərə malik olduğunu deyərək bu işlərdə Prezident İlham Əliyevin rolunu xüsusi vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda XV Avropa Gənclər Yay Olimpiya Festivalının keçirilməsi ilə bağlı hazırlıq işlərinin tamamlandığını qeyd etdi və bu tədbirin önəmini vurğuladı. Dövlətimizin başçısı idmanın Azərbaycanda prioritet sahələrdən biri olduğunu bildirərək idmançılarımızın beynəlxalq yarışlarda böyük nailiyyətlər qazandığını və Azərbaycanda mühüm beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini qeyd etdi. Sonra Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Azərbaycanda nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı ayrılıb

Prezident İlham Əliyev Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncam Azərbaycanda nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə imzalanıb.

Sərəncama əsasən Azərbaycanda nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrılıb.

# Əli Həsənov: “Medianın inkişafı Azərbaycanın bugünkü iqtisadi, sosial, siyasi, mədəni inkişafına tam adekvatdır”




**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə (KİVDF) Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

Trend-in məlumatına görə, tədbirdə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, KİVDF-nin icraçı direktoru Vüqar Səfərli, Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, dövlət rəsmiləri, millət vəkilləri, KİV rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bu il Azərbaycan mətbuatının 144-cü ildönümünün qeyd edildiyini diqqətə çatdıraraq bildirib: “Mətbuat tariximizin son 27 ili sizin iştirakınızla yaradılıb. Azərbaycan mediasının inkişafı Azərbaycanın bugünkü iqtisadi, sosial, siyasi, mədəni inkişafına tam adekvatdır. Bəzən təəssüflər olusn ki, Azərbaycan jurnalistikasının da opponentləri tapılır və bizim bugünkü inkişafımızı inkar etməyə çalışırlar. Amma bu bir reallıqdır ki, müstəqil Azərbaycan mediası 27 illik tarixində təkcə ölkəmizdə deyil, dünyada Azərbaycanı layiqincə təmsil etmək gücünə malikdir, təmsil edir və təmsil etməkdə davam edəcək”.











Ə.Həsənov vurğulayıb ki, müstəqil media tariximizdə mühüm xidmətləri olan Ümummilli lider Heydər Əliyevi bugünkü mətbuat günündə xatırlamaq hamının haqqıdır. Prezident Aparatının rəsmisi bildirib ki, 1998-ci ildə Ümummilli liderin fərmanı ilə Azərbaycan mediası üzərindən bütün senzura strukturları, mətbuatın fəaliyyətini tənzimləyən Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi və Azərbaycan mediasına özünün ictimai tənzimlənməsini yaratması üçün şərait yaradıldı:

“Jurnalistlərin özlərinin yaratdığı Mətbuat Şurası mətbuatın yaradıcılıq problemlərini, o cümlədən jurnalistlərin sosial-iqtisadi problemlərini araşdırır, dövlət qarşısında bu və ya digər təşəbbüslərlə çıxış edir. Dövlət tərəfindən həmin təşəbbüslərin ən mütərəqqilərinə dəstək verilir”.

Ə.Həsənov bildirib ki, əgər Həsən bəy Zərdabi Azərbaycan Milli Mətbuatının təməlini qoymuşdusa, Ümummilli lider Heydər Əliyev Azərbaycanda azad medianın banisi kimi tarixə düşdü, media üzərindəki tənzimləmə və senzura mexanizmlərini ləğv etdi: “Beləliklə də azad medianın formalaşması üçün bütün lazımi şəraiti yaratdı. Ümummilli liderin media siyasəti 2003-cü ildən sonra Prezident İlham Əliyev tərəfindən dönmədən ardıcıl və prinsipial şəkildə davam etdirilir. Medianın bugünkü inkişafında Prezident İlham Əliyevin xüsusi payı, xidmətləri var”.

Ə.Həsənov əlavə edib ki, 2008-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan mediasına Dövlət Dəstəyi Konsepsiyası qəbul edildi: “Bu Konsepsiyanı həyata keçirən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. Bu müddət ərzində Azərbaycan mediasına 50 milyon manata yaxın bu və ya digər formada yardım göstərilib. Qəzetlərin uzun müddət yığılmış borcları da dövlət tərəfindən bağlanıb”.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan dövləti hesab edir ki, bu gün mətbuat dövlətin himayəsində və qayğısında olmalıdır: “Mətbuat mədəniyyətin bir hissəsidir. Azərbaycan mediasının inkişafı Azərbaycan dövlətinin inkişafına tam adekvatdır. Bu gün heç kim deyə bilməz ki, Azərbaycanda teatr, incəsənət, elm, təhsil və digər sahələr mətbuatdan daha çox inkişaf edib. Mədəniyyət sahəsinin bütün sahələri kimi mediamız da inkişaf edir. Azərbaycan dövləti mədəniyyət xadiminə də, idmançısına da, tetar xadimlərinə də ev verir, jurnalistlərə də. Onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq addımlar atır. Ona görə də buna qarşı qısqanclıq, hansısa fərqli fikir formalaşdırmaq sağlam məntiqin, sağlam düşüncənin nümunəsi deyil”.

Tədbirdə çıxış edən KİVDF-nin icraçı direktoru Vüqar Səfərli müsabiqənin 2019-cu il iyunun 8-dən iyulun 12-dək Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçirildiyini, müsabiqəyə 56 KİV-dən 142 yazının təqdim edildiyini bildirib.

V.Səfərli deyib ki, müsabiqənin şərtlərinə uyğun olaraq 19 istiqamət üzrə qaliblər elan edilib, ümumilikdə 111 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub. Daha sonra tədbir bədii hissə ilə davam etdirilib.

## Baş nazir: “Müasir Azərbaycan mətbuatı öz inkişaf dövrünü yaşayıb”



“144 yaşını qeyd edən Milli Mətbuatımızın ilk nümunəsi 1875-ci iyulun 22-də görkəmli ziyalı, publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış və ictimai-maarifçiliyi hədəfləmiş “Əkinçi” qəzetindən əsasını götürüb. O vaxtdan keşməkeşli yol keçən Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynayır. Müasir Azərbaycan mətbuatı isə ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərə uyğun olaraq, öz inkişaf dövrünü yaşayıb”. Bunu Baş nazir Novruz Məmmədov öz “Twitter” səhifəsində qeyd edib.

Baş nazir vurğulayıb ki, Azərbaycan mətbuatının milli-mənəvi dəyərlərin təşviqi, gənc nəslin vətənpərvər ruhda böyüməsi, eləcə də ölkəmizin xarici siyasət maraqlarına aid olan məsələlər, xüsusilə Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq auditoriyaya çatdırılması və milli informasiya təhlükəsizliyimizin təmin olunmasında müstəsna xidməti var: “Bütün media nümayəndələrini Milli Mətbuat günü münasibətilə təbrik edir, onlara can sağlığı, məsuliyyətli işlərində daim uğurlar arzulayıram”.

## Mübariz Qurbanlı: Çin ilə Azərbaycan arasında əlaqələr yüksələn xətt üzrə inkişaf edir



Çin ilə Azərbaycan arasında əlaqələr yüksələn xətt üzrə inkişaf edir. Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Mübariz Qurbanlı “Si Cinpinin yeni dövr Çin səciyyəvi sosializm ideyası” mövzusunda keçirilən konfransda deyib.

M.Qurbanlı bildirib ki, Çin Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biridir: “1992-ci ildən Çin ilə Azərbaycan arasında diplomatik münasibətlər yaranıb. İki ölkə arasında qarşılıqlı səfərlər müxtəlif sənədlərin imzalanması ilə nəticələnib və həmin sənədlər əsasında iki ölkə arasında əməkdaşlıq güclənir. Çin ilə Azərbaycan strateji tərəfdaşdırlar. Eyni zamanda Çin Dağlıq Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyini həmişə dəstəkləyib və bu mövqe dəyişməz qalıb”.

## “Gələcəkdə daha yüksək nəticələr əldə olunacaq”



“Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar”. Bu fikirləri SİA-ya YAP Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

S.Orucov bildirib ki, Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları da həyata keçirilir. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir. Eləcə də, gənclər daim irəli çəkilir, mühüm dövlət postlarına təyin olunurlar. Yəni, dövlət idarəçiliyində, eləcə də seçkili orqanlarda gənclərin təmsilçiliyi artır. Həmçinin, müxtəlif sahələrdə uğurlar qazanan, Azərbaycanın adını yüksəldən gənclərimiz dövlət rəhbərliyi tərəfindən layiqincə dəyərləndirilirlər.

“Gəncliyin qarşısında dayanan əsas vəzifə bundan ibarətdir ki, bilikli, yüksək təhsilli, vətənpərvər olmalı, dövlətimizin inkişafına və daha da güclənməsinə, müstəqilliyimizin qorunmasına böyük töhfələr verməlidirlər. Bu baxımdan, Azərbaycan gəncliyi dövlətin göstərdiyi etimadı layiqincə doğrultmalıdır. Gənclərimiz bu yolda inamla irəliləyir və gələcəkdə daha yüksək nəticələr əldə olunacaq”, - deyə, S.Orucov vurğulayıb.

*Ceyhun Rasimoğlu*



# "Biz YAP olaraq öz fəaliyyətimizdə mətbuatla əməkdaşlığa böyük əhəmiyyət veririk"

*Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 22 iyul Milli Mətbuat Günü münasibətilə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb*











***Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 22 iyul Milli Mətbuat Günü münasibətilə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb.***

Görüşdə Əli Əhmədov jurnalistləri peşə bayramı münasibətilə təbrik edərək, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Azərbaycanda hər il milli mətbuat gününün yüksək səviyyədə qeyd olunduğunu deyən Əli Əhmədov bu faktı cəmiyyətin mətbuata verdiyi önəmin ifadəsi kimi dəyərləndirib. O qeyd edib ki, mətbuat bütün cəmiyyətlərdə, o cümlədən Azərbaycan cəmiyyətində söz, fikir, ideya azadlığının həyata keçirilməsində əhəmiyyətli rol oynayan vasitələrdən biridir. "Müasir həyatı mətbuatsız, informasiyasız təsəvvür etmək mümkün deyil. Cəmiyyət inkişaf etdikcə, müasirləşdikcə informasiyanın və informasiyanı insanlara çatdıranların rolu və əhəmiyyəti getdikcə artır. Bu mənada mətbuatın cəmiyyətdə müsbət rolu həmişə qiymətləndirilir"-deyən, YAP Sədrinin müavini söyləyib ki, müasir Azərbaycan cəmiyyəti də söz və mətbuat azadlığını daim həyata keçirmək üçün mətbuatın rolunu yüksək qiymətləndirir.

Azərbaycanda çoxlu sayda KİV-in mövcud olduğunu deyən Əli Əhmədovun sözlərinə görə, onlar cəmiyyətimizin, insanların informasiya ilə təmin olunmasında vacib rol oynayırlar. Eyni zamanda, yeni çağırışların nümunəsi olan sosial şəbəkələr də çox vacib informasiya vasitəsi funksiyasını yerinə yetirirlər. Beləliklə, söz və mətbuat azadlığı yeni texnologiyaların meydana gəlməsi ilə əlaqədar olaraq daha da genişlənib. Əli Əhmədov deyib ki, bu gün hər bir insan sosial şəbəkələr vasitəsilə informasiya ötürücüsü funksiyasını yerinə yetirə bilir. Bütün bunlarla yanaşı sosial şəbəkələrdə qeyri-obyektiv, həqiqətdən uzaq olan, yalan məlumatların da yayıldığını deyən Baş nazirin müavini söyləyib ki, bu tipli informasiyalar insanlarda narahatlıq yaradır. Onun sözlərinə görə, dünya ölkələrində də belə xoşagəlməz hallar var və bunun həlli yolları axtarılır.

Azərbaycanın dinamik inkişaf etdiyini, əhalinin rifahının daha da yüksəldilməsi üçün dövlət tərəfindən lazımi addımların atıldığını deyən Əli Əhmədov bu ilin əvvəlindən sosial sahədə aparılan islahatları xatırladıb. O qeyd edib ki, islahatlar digər sahələrdə də davam edir. Baş nazirin müavini söyləyib ki, ölkəmiz böyük layihələr həyata keçirir və bu layihələrin uğurla yekunlaşması üçün bütün imkanlar səfərbər olunub: "Azərbaycan bir sıra qlobal layihələrin təşəbbüskarı və iştirakçısıdır, eləcə də regionda tranzit mərkəzi kimi rolunu artırır. Həmçinin, ölkəmizin beynəlxalq proseslərdə iştirakçılığı artır. Beləliklə, böyük inkişaf mərhələsi yaşayırıq. Azərbaycanın gələcəyi daha parlaqdır, insanların həyatı daha da yaxşılaşacaq, iqtisadiyyatımız daha da güclənəcək, beynəlxalq müstəvidə nüfuzumuz daha da yüksələcək. Bütün bunların nəticəsi olaraq dövlətin gücünün və qüdrətinin artması müəyyən xarici dairələrdə qısqanclıq yaradır. Bu səbəbdən də ölkəmizə qarşı təxribatlar törətməyə çalışırlar. Təəssüf ki, bu prosesdə bəzi vətəndaşlarımız da iştirak edir. Amma bu cür təxribatların Azərbaycanda geniş yayılması üçün mühit və zəmin mövcud deyil. Təxribatçılar qarşısına qoyduğu məqsədlərə nail ola bilmir. Çünki cəmiyyətimiz təxribata uymur, onun qarşısının alınmasında dövlətlə eyni mövqedən çıxış edir. Sabitlik, əmin-amanlıq cəmiyyətimizin ən böyük üstünlüklərindən biridir. Prezident İlham Əliyevin siyasəti xalqımız tərəfindən birmənalı olaraq dəstəklənir. Çünki bu siyasət xalqımızın rifahının yüksəlməsinə, dövlətimizin daha da möhkəmlənməsinə xidmət edir. Mətbuat da bu reallıqları aydın dərk edir".

Əli Əhmədov qeyd edib ki, ölkə mətbuatı bu prosesləri düzgün təhlil edir və milli maraqlarımızın müdafiəsi mövqeyindən çıxış edir. Bu da çox mühüm amildir. Eyni zamanda, mətbuat ölkəmizin nüfuzuna kölgə salmaq istəyən dairələrin ifşası və onların əsl niyyətinin cəmiyyətimizə çatdırılmasında öz işini daha da gücləndirməlidir.

"Biz YAP olaraq öz fəaliyyətimizdə mətbuatla əməkdaşlığa böyük əhəmiyyət veririk. Bizim fəaliyyətimiz mətbuatsız mümkün deyil və mətbuatla əməkdaşlıqdan məmnunuq"- deyən, YAP Sədrinin müavini bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyini bildirib.

Sonda Əli Əhmədov jurnalistlərə 22 iyul Milli Mətbuat Günü münasibətilə mükafatlar təqdim edib.

# Bakıda "Si Cinpinin yeni dövr Çin səciyyəvi sosializm ideyası" mövzusunda konfrans keçirilib

***İyulun 22-də Bakıda "Si Cinpinin yeni dövr Çin səciyyəvi sosializm ideyası" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanla Çin arasında əlaqələrin inkişafından danışıb. O qeyd edib ki, Çin Azərbaycana tərəfdaş, dost ölkədir. Çin ilə Azərbaycan arasında əlaqələr yüksələn xətt üzrə inkişaf edir. Bu əlaqələrin inkişafında yüksəksəviyyəli qarşılıqlı səfərlər, tərəflər arasında imzalanan sənədlər mühüm rol oynayır.***





YAP icra katibinin müavini bildirib ki, Çin Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biridir. 1990-cı illərin əvvəlindən Çin ilə Azərbaycan arasında diplomatik münasibətlər yaranıb. İki ölkə arasında qarşılıqlı səfərlər müxtəlif sənədlərin imzalanması ilə nəticələnib və həmin sənədlər əsasında əməkdaşlıq güclənir. Çin ilə Azərbaycan strateji tərəfdaşlardır. Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Çin Azərbaycanın ədalətli mövqeyini həmişə dəstəkləyib və bu mövqe dəyişməz qalıb.

M.Qurbanlı Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası, eləcə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib. O, Azərbaycan ilə Çin arasındakı dostluq əlaqələrinin əhəmiyyətini vurğulayaraq, ortaq iqtisadi maraqlar, hər iki ölkənin tarixi İpək Yolunun bərpasındakı rolu və digər bu kimi amillərin əməkdaşlığın inkişafına zəmin yaratdığını qeyd edib. Dövlət Komitəsinin sədri Çinin müəllifi olduğu "Bir kəmər, bir yol" layihəsinin də dünyanın marağında olduğunu söyləyib. Çıxış edən Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao bildirib ki, Çinlə Azərbaycanın əlaqələri yüksək səviyyədədir. Bu da xalqlar arasında münasibətlərə müsbət təsir göstərir.

Sun Tao qeyd edib ki, Çin əvvəlki dövrlərdən fərqli olaraq yoxsulluq problemini həll edib. Ötən 70 il ərzində Çin böyük inkişaf yolu keçib. Çində bir çox sahələr, o cümlədən maşınqayırma, sənaye sahəsi inkişaf edib. Çin beynəlxalq aləmdə nüfuzlu ölkəyə çevrilib. O, Çin Kommunist Partiyasının Yeni Azərbaycan Partiyası ilə əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib.

Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxışında iki ölkə arasındakı əməkdaşlıq mühitindən danışıb. O vurğulayıb ki, Çinin təşəbbüsü ilə həyata keçirilən "Bir kəmər, bir yol" layihəsi böyük kommunikasiya, siyasi, iqtisadi, mədəni, ən əsası, inqilabi bir layihədir. Azərbaycan bu layihənin həyata keçirilməsini dəstəkləyən ilk dövlətlərdən biridir. Çindən Avropaya gedən yolda Ələt Beynəlxalq Dəniz Ticarət Limanı vacib rol oynayacaq. Bu yaxınlarda Azərbaycana səfər edən Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Ələt limanın əhəmiyyətini vurğulayıb. Deputat Azərbaycanla Çin arasında münasibətlərin inkişafının hər iki ölkənin maraqlarına cavab verdiyini qeyd edib.

Sonra çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı və YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov da Azərbaycan-Çin əlaqələrinin əhəmiyyətindən danışıblar.

# İlk gündəlik qəzet eramızdan əvvəl dərc olunub

***Mətbuatın tarixinə nəzər saldıqda görürük ki, ilk qəzet eramızdan əvvəl 59-cu ildə Qədim Romada dərc olunub. Gündəlik dərc olunan "Günün hadisələri" adlı qəzet əl ilə yazılıb və oxuya bilənlərin məlumatlana bilməsi üçün müəyyən olunmuş yerlərdən asılan kağız vərəqələr şəklində idi. Ondan sonra 1300 il əvvəl Qədim Çində əl ilə yazılan "Paytaxt yenilikləri" adlı gündəlik qəzet nəşr olunub.***



Sonralar 1609-cu ildə Almaniyada müntəzəm nəşr olunan "Zaytunq" adlı qəzet dünyada ilk çap məhsulu hesab edilir. Beləliklə, məlumat çatdırmaq, cəmiyyətin, insanların, vətəndaşların məlumatlandırılması forması kimi qəzetçiliyin inkişaf tarixi qədimlərdən bugünə kimi uzun tarixi inkişaf yolu keçərək, daim dövrün müasir texnologiyaları ilə yenilənərək bugünkü formasını almışdır.

Mütərəqqi insanlar mətbuatdan vətəndaşların yaşadıqları dövrə uyğun olaraq savadlanması, cəmiyyətdə mövcud olan neqativlərin tənqidi və təbliğat işlərində geniş şəkildə istifadə etmişlər. Yəni mətbuat həmişə, bütün dövrlərdə və bütün cəmiyyətlərdə insanları, kütlələrin ön cərgəsində gedən bir təbəqədə mövcud olaraq cəmiyyəti istiqamətləndirmək funksiyasını yerinə yetirmişdir. Qəzet, jurnal, sonra radio, televiziya və nəhayət bu günkü dünyanın elektron kütləvi informasiya vasitələri tarixdən bu günə qədər dünyada öz rolunu, öz dəyərini nəinki itirməmiş, əksinə zaman-zaman daha güclənib, daim özünün müasir formasında mövqeyini qətiləşdirmişdir.

1895-ci ildə məşhur rus mühəndisi Aleksandr Stepanoviç Popov radionu kəşf etdikdən sonra 1901-ci ildə italyan Gulielma Markoni tərəfindən radio yayımı tətbiq edildikdən sonra, 1923-cü ildə rus alimi Vladimir Zvoriqin ilk dəfə televiziya sistemini yaradaraq 1936-cı ildə İngiltərə və Almaniyada, 1941-ci ildə isə ABŞ-da mütəmadi olaraq televiziya yayımının tətbiqi elektron kütləvi informasiya vasitələrinin əcdadı sayılır.

Mətbuatın cəmiyyətin idarə olunmasındakı vacib rolu bütün dövrlərdə idarə edənlər tərəfindən nəzərə alınmış və bunun əhəmiyyəti qiymətləndirilərək uyğun olaraq müvafiq qərarlar qəbul edilmişdir. Əsrin əvvəlində Car rusiyasında bolşevik təbliğatında nəşriyyat işinin böyük rolu olmuşdur. O dövrün hökümətinin qadağalarına baxmayaraq xaricdə və daxildə gizli şəkildə nəşr olunan təbliğat vasitələri hakimiyyətin devrilməsində öz rolunu oynamışdı. Elə sovet hakimiyyətinə qarşı da daim təbliğat aparan "Amerikanın səsi", "Azadlıq" radiolarına qərb dairələri böyük məbləğlərdə vəsait xərcləyirdilər.

Yaxın tariximizdə, II dünya savaşında Adolf Hitler də müharibədə mətbuatın rolunu lazımınca qiymətləndirərək nəzərə almışdı. Almanların Təbliğat Nazirliyi vərəqlər, kitabçalar, radio yayımları, filmlər vasitəsilə təbliğat aparır və sovet əsgər və zabitlərini, sovet sərhədlərindəki xalqları öz tərəflərinə çəkmək üçün iş aparırdılar. Bu işlərə Hitlerin yaxın silahdaşı Yozef Gebbels rəhbərlik edirdi.

Müharibənin ilk vaxtlarında aparılan təbliğatın nəticəsində çoxlu sovet zabitləri almanların tərəfinə keçmişdi. Almanları Təbliğat Nazirliyinin nəzdində olan "Vineta" təşkilatının rəhbəri Taubert 1943-cü ildə Gebbelsə yazdığı hesabatda bildirirdi ki, iki il ərzində təyyarələrdən atılmaq üçün 500 milyon ədəd vərəqə və kitabça çap olunub, 60 milyon ədəd isə hazırda çapdadır. Eyni zamanda hesabatda göstərilirdi ki, türküstanlıların, azərbaycanlıların və gürcülərin öz dillərində "Almaniya hürrüyət gətirir" məzmunlu kitabçalar nəşr olunub yayılırdı. Almaniya Təbliğat Nazirliyinin nəzdində fəaliyyət göstərən "Vineta" təşkilatının radioverilişlər xidməti rus, ukrayna, belorus, pribaltika və Qafqaz redaksiyaları bu dillərdə gündəlik verilişlər hazırlayıb yayınlayırdılar. Qafqaz redaksiyasına əvvəllər professor Şayber, sonralar isə qafqazlı alman Lents rəhbərlik edirdi. Qafqaz redaksiyasının da nəzdində Azərbaycan, gürcü, erməni, Şimali Qafqaz, türkmən, tatar, kalmık milli redaksiyaları fəaliyyət göstərirdi.

Ümumiyyətlə, həm müharibədə, həm soyuq müharibə dövründə təbliğat və anti-təbliğat silahı çox geniş istifadə olunmuşdur. Bu günkü dünyada da istər lokal və regional müharibələrdə, istər iqtisadi rəqabətdə, istər elmin, mədəniyyətin təbliğində informasiyanın, mətbuatın rolu çox böyük və danılmazdır.

Azərbaycan mətbuatının inkişaf tarixinə nəzər saldıqda 1832-ci ildə "Tiflis əxbarı" və 1845-ci ildə "Zaqafqazki vestnik" qəzetinə əlavə kimi "Qafqazın bu tərəfin xəbəri" bülleteni nəşr olunsa da milli mətbuatın bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk sayının dərc olunması ilə qoyulmuşdur.

Təbiətşünas alim, milli maarifçilik hərəkatının banilərindən olan Həsən Bəy Zərdabinin naşiri və redaktoru olduğu "Əkinçi" qəzeti bütün Qafqazda böyük əks-səda doğurmuşdu. Həmin dövrün görkəmli ziyalıları olan Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani kimi şəxsiyyətlər "Əkinçi" qəzeti vasitəsilə öz maarifçilik ideyalarını təbliğ edərək dövrün ictimai, siyasi və bədii fikrin inkişafına təsir göstərirdilər. "Əkinçi" qəzetinin dili də xalqın anlaya biləcəyi dildə olduğu üçün geniş nüfuz qazanaraq Azərbaycandan kənarda da - Gürcüstan, Dağıstan, Özbəkistan və s. yayılırdı. "Əkinçi" qəzeti mövhumata, cəhalətə, xuarafata qarşı mübarizə aparır, maarifçilik, qadın azadlığı, təhsilin inkişafı ilə bağlı məqalələr dərc edirdi. 1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra bir çox səylərə baxmayaraq bir müddət Azərbaycanda ana dilimizdə qəzet nəşr etdirmək mümkün olmamışdır. Rusdilli qəzetlərdən uzunömürlü "Kaspi"nin 1897-ci ildən naşiri Hacı Zeynalabdin Tağıyev, redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əlibəy Hüseynzadə olmuşdur. Həmin dövrdə rus dilində dərc olunan digər qəzetlərdə də Azərbaycanca səhifə yaratmaq cəhdləri mümkün olmamışdı. 1883-1891-ci illərdə Tiflisdə dərc olunan "Kəşkül" qəzeti və jurnalı "Əkinçi" üslubunu davam etdirə bilmişdi.

1903-cü ildə Tiflisdə Məmmədağa Şahtaxtinskinin nəşr etdiridiyi "Şərqi-rus" qəzeti XX əsrdə Azərbaycan dilində çap olunan ilk qəzet oldu. Qəzetin ətrafında Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçi mütəfəkkirlər birləşərək ana dili, elm və maarifçilik, qadın azadlığı və digər mütərəqqi fikirlərin təbliği ilə məşğul olurdular. "Şərqi-rus" qəzeti ətrafında formalaşmış yaradıcı heyət mətbuatın inkişafında xüsusi rol oynamışdır.



Cəlil Məmmədquluzadənin naşirliyi və redaktorluğu ilə 1906-cı ilin aprelin 7-də Tiflisdə işıq üzü görən "Molla Nəsrəddin" həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə və 1922-1931-ci illərdə Bakıda nəşr edilmişdir.

Jurnalda Azərbaycanın görkəmli yazıçı, jurnalist və ziyalıları ilə yanaşı Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi rəssamlar da fəaliyyət göstərirdilər. Həmin dövrlərdə artıq Bakıda "Kaspi" mətbəəsi, Tiflisdə, Gəncədə, Şuşa, Naxçıvan kimi şəhərlərdə kiçik məhdud imkanlı olsa da mətbəələr, çapxanalar yaradılırdı. 1901-1918-ci illərdə Azərbaycanda çoxlu qəzetlər dərc olunmuşdu ki, bu maarifçilik, mütərəqqi ideyaların təbliği, dünyəvi elmlər, qadın azadlığı, xurafata qarşı mübarizədə milli düşüncə və ideologiyanın təbliğində böyük rol oynamışdı. 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin əldə olunmasında da həmin dövr mətbuatının da rolu böyük olmuşdur. İstər Azərbaycan Xalq Cümhuriyyəti dövründə, istərsə də sovetlər dönəmində ideologiyalar fərqli olsa da Azərbaycan mətbuatı özünün tarixi inkişaf yolunu keçərək estafeti XX əsrin sonunda yenidən müstəqilliyini qazanmaq şansı əldə etmiş və yeni dövrə təhvil vermişdir.

Bütün Sovet Sosialist Respublikası İttifaqında (SSRİ) başlayan yenidənqurma havası Azərbaycana da çatdı və ictimai mühitə kəskin təsir göstərdi. Millətin dirçəliş dövrü kimi tarixdə qalan 1989-cu ildə "Azərbaycan" qəzeti yaradıldı. Müstəqil mətbuatın qaranquşları hesab edilən "Səhər" qəzeti 1989-cu ilin 4 avqust tarixində və "Azadlıq" qəzeti 1989-cu ilin 24 dekabr tarixində işıq üzü gördülər. "Səhər"ə tanınmış jurnalist Məzahir Süleymanzadə, "Azadlıq"a tanınmış jurnalist Nəcəf Nəcəfov rəhbərlik edirdilər.

1990-cı ildə "Zerkalo", "Səs", 1991-92-ci illərdə "Yeni Müsavat", "İki Sahil", "525-ci qəzet", "Yeni Azərbaycan" qəzetləri nəşr olunmağa başladı.

1998-ci ilin avqust ayının 6-da prezident Heydər Əliyevin imzaladığı xüsusi Sərəncamla Azərbaycanda mətbuat üzərindən senzura götürüldü. Həmçinin, 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri (KİV)haqqında Azərbaycan Respublikasının Qanununun (ARQ), digər hüquqi-normativ aktların qəbulu həyata keçirilib.

Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin (KİV) inkişafına Dövlət Dəstəyi Konsepsiyası (DDK)kimi mühüm bir sənəd təsdiq olunmuşdur. Konsepsiyaya uyğun olaraq 22 may 2009-cu ildə Azərbaycan Respublikasının Prezidentiyanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (DDF) yaradılmışdır.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanı-qəzet və jurnal fəaliyyət gös-

# İlk gündəlik qəzet eramızdan əvvəl dərc olunub

tərir. Hazırda ölkədə 4500-ə yaxın mətbuat orqanı Ədliyyə Nazirliyində (ƏN) qeydiyyatdan keçib.

Azərbaycan Respublikasının Prezidentinin sərancamı ilə “Əkinçi” qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli mətbuat və jurnalistika günü kimi qeyd olunur.

XX əsrin əvvəlində Azərbaycan Xalq Cümhuriyyətini təmsil edən şəxslərin formalaşmasında onların təbliğatında və yeni qurulmaqda olan dövlətin bütün çətinliklər və təlatümlərlə mübarizəsində, milli düşüncə, milli ideologiyanın inkişafında, dövrün vacib tələbinə müvafiq xurafatın, cəhalətin tənqidi, savadsızlıqla mübarizə və elmin, mədəniyyətin təbliğində mətbuatın böyük rolu olmuşdur.

XX əsrin sonunda isə yenə müstəqillik qazanmaq fürsəti ələ düşsə də yenə də dövlət müstəqilliyinin qorunub saxlanması böyük çətinliklər, təlatümlər, labirintlər sınağından çıxmalı oldu. Əldə olunmuş dövlət müstəqilliyimiz bugünkü Azərbaycan vətəndaşının ən böyük nemətidir. Lakin müstəqilliyimizin möhkəmlənməsi, milli mə-








nafeyimizin qorunması balıca prinsip olmaqla demokratik dövlət quruculuğu və iqtisadi inkişaf, bütün bunlarla paralel olaraq işğal altında qalan doğma yurdlarımızın azad edilməsi bugünkü, müasir Azərbaycan xalqının və Azərbaycan vətəndaşının başlıca vəzifəsinə çevrilmiş bir prosesdir. Və bu prosesdə - həm güclü, müstəqil, qüdrətli, demokratik dövlət quruculuğunda, yüksək sosial-iqtisadi yaşam standartlarına nail olunması və qalib, müzəffər ordumuzun zəfər qələbəsinə şahidlik nəsibinin yaşanmasında, vətənpərvərlik ruhiyyəsinin, vətən və dövlət sevgisi, qürur hissinin yüksəlməsində mətbuat-təbliğat işinin rolu əvəzsizdir.

Azərbaycan Respublikasının Prezidenti müstəqil milli dövlətimizin inkişafında mətbuatın rolunu və xidmətini çox yüksək qiymətləndirərək bu ziyalı zümrəyə daim diqqət və qayğı göstərmişdir.

Mətbuat Şurası üçün yeni inzibati binanın, o cümlədən mətbuat işçiləri üçün dövlət hesabına yaşayış binasının tikintisi də mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Xüsusi vurğulamaq lazımdır ki, mətbuat işçiləri üçün dövlət hesabına mənzillərin inşası dünya miqyasında analoqu olmayan hadisədir.




Bütün bunları yüksək qiymətləndirən Azərbaycan mətbuatı Prezident İlham Əliyevi üçüncü dəfə “Jurnalistlərin dostu” elan edib. “RUH” Jurnalistləri Müdafiə Komitəsi tərəfindən aparılan rəy sorğusunda Prezident İlham Əliyev ən yüksək səs çoxluğu ilə “Jurnalistlərin dostu” seçilib. İyulun 20 də jurnalistlər üçün tikilən ikinci binanın açılışında və üçüncü binanın təməlqoyma mərasimində Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov ölkə jurnalistlərinin adından bu möhtəşəm mükafatı təqdim etdi. Mükafatı qəbul edən Prezident İlham Əliyev ölkəmizdə mətbuatın inkişafı istiqamətində mühüm addımların atıldığını qeyd edərək vurğuladı ki, demokratik cəmiyyətin qurulması istiqamətində azad mətbuatın rolu danılmazdır: “Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır. Azərbaycanda bütün azadlıqlar təmin olunur, o cümlədən söz azadlığı və siz jurnalistlər bunu yaxşı bilirsiniz. Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir. Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır”.

Bu, bir faktdır ki, mətbuatda dövlətçilik maraqlarına hörmət prinsipi bütün şəxsi maraqlardan öndə dayanmalıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyini beynəlxalq aləmdə geniş təbliğ etməyə, eyni zamanda, Azərbaycanla bağlı xaricdə yayılan informasiyaların dövlət maraqlarına xidmət etməsində medianı həmrəy olmağa səsləyib. İyulun 20-də jurnalistlərlə görüşü zamanı cənab Prezident onlara üz tutaraq bildidi ki, mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim: “Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi




də bu siyasətin bir təzahürüdür. Bu təşəbbüs bir neçə il bundan əvvəl irəli sürülmüşdü, jurnalistlər belə məsələ qaldırmışdılar, mən də buna müsbət reaksiya verdim və nəticə etibarilə artıq biz burada ikinci binanın açılışını qeyd edirik. Xatırlayıram, 4 il bundan əvvəl birinci binanın açılışında mən demişdim ki, yəqin gələcəkdə bu əraziyə “Jurnalistlər şəhərciyi” deyiləcək və bu, belə də oldu. Artıq bu gözəl yer “Jurnalistlər şəhərciyi”dir, burada üçüncü bina da tikiləcək. Əlbəttə ki, biz jurnalistlərin məişət problemlərinin həlli üçün gələcəkdə əlavə tədbirlər görəcəyik”.

Prezident İlham Əliyev jurnalistlərlə görüşündə azad mətbuatın inukişafı üçün daha əlverişli şəraitlərin yaradılacağını bildirdi. Przidentin sözlərinə görə, məhz demokratik dəyərlərin qorunması və xalqla iqtidarın birliyi Azərbaycanı qlobal təhlükələrdən qoruyur: “ O ki qaldı, jurnalistikanın gələcək inkişafı ilə bağlı məsələlərə, sizə deyə bilərəm ki, Azərbaycan dövləti azad mətbuatın inkişafında bundan sonra da fəal olacaq. Jurnalistlər üçün bütün şərait yaradılıb. Bu gün Azərbaycan cəmiyyəti rahat şəraitdə, təhlükəsizlik, sabitlik şəraitində yaşayır. İndiki zamanədə bu, özlüyündə bir nailiyyətdir və biz ölkəmizi bütün mümkün olan risklərdən qoruyuruq. Ölkəmizin daxilində demək olar ki, risk mənbələri yoxdur. Xaricdən özümüzü qorumaq üçün kifayət qədər ciddi siyasət aparılır, həm ideoloji sahədə, həm sərhədlərimizin qorunmasında və ümumiyyətlə. Biz həmişə çalışırıq və hesab edirəm buna nail olmuşuq ki, Azərbaycanı mümkün risklərdən qoruyaq, Azərbaycan xalqı rahat, sülh şəraitində yaşasın”.

Azərbaycan Prezidenti jurnalistlərə mənzillərin bölüşdürülməsində ədalət prinsipinin qorunmasının mühüm şərt olduğunu vurğulayaraq bildirib: “Bu binalarda yaşayan və bundan sonra yaşayacaq jurnalistlər müxtəlif siyasi spektrə aiddir və burada da heç bir ayrıseçkiliyə yol verilmədi. Müxtəlif siyasi baxışları, müxtəlif partiyaların üzvləri olan insanlar burada bir yerdə bir ailə kimi yaşayacaqlar. Əslində, Azərbaycan cəmiyyəti də bu istiqamətdə inkişaf edir. Azərbaycanda milli həmrəylik var. Azərbaycan cəmiyyəti vahid amal ətrafında birləşib. Bizdə olan inkişaf, sabitlik, əmin-amanlıq, əlbəttə, bu gün siz də yaxşı bilirsiniz ki, dünyanın bir çox yerlərində öyrənilir, bəzən təəccüblə qarşılanır və bunun da çox sadə səbəbi var. Çünki Azərbaycanda çox gözəl, demokratik şərait var. Azərbaycanda iqtisadi inkişaf var. Azərbaycan müstəqil siyasət apararaq həm bölgədə, həm dünyada öz mövqelərini möhkəmləndirib. Bizim təsir imkanlarımız genişlənir, böyüyür və Azərbaycan xoşniyyətli siyasət aparır. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının və Azərbaycan dövlətinin maraqları dayanır”.

*MÜSTƏQİL, MİLLİ DÖVLƏTİMİZİN QURUCULUĞUNDA DEMOKRATİK DƏYƏRLƏRİN İNKİŞAFINDA, CƏMİYYƏTİN ELMİ, SİYASİ-İDEOLOJİ İNTELLEKTİNİN VƏ DÜNYAGÖRÜŞÜNÜN, VƏTƏNDAŞLIQ QÜRURUNUN, DÖVLƏT SEVGİSİ HİSSİNİN, VƏTƏNPƏRVƏRLİK RUHUNUN YÜKSƏLMƏSİNDƏ AZƏRBAYCAN MƏTBUATININ ƏVƏZSİZ ROLU, MƏTBUAT İŞÇİLƏRİNİN BÖYÜK ZƏHMƏTİ VARDIR. BÜTÜN MƏTBUAT İŞÇİLƏRİNİ PEŞƏ BAYRAMI MÜNASİBƏTİLƏ ÜRƏKDƏN TƏBRİK EDİR, AZƏRBAYCAN XALQININ VƏ DÖVLƏTİMİZİN İNKİŞAFI VƏ QÜDRƏTLƏNMƏSİNDƏ GÖSTƏRDİYİNİZ XİDMƏTLƏRDƏ UĞURLAR ARZULAYIRIQ.*

***“SƏS” qəzetinin sifarişi əsasında “Region” Analitik İnformasiya Mərkəzi tərəfindən hazırlanıb***

# Azərbaycan reallıqları dünya mətbuatının diqqətindədir

***Azərbaycan gerçəklikləri, ictimai-siyasi həyatında baş verən önəmli hadisələr, tarixi, mədəniyyəti, turizm imkanları, qlobal turizm bazarında getdikcə artan nüfuzu və Azərbaycanın ideal turizm məkanına çevrilməsində xalqın qonaqpərvərliyi, ölkənin təbiəti, coğrafi mövqeyi və s. bağlı dünya mətbuatında yer alan məqalələrin sayı gündən-günə artır.***

Məqalələrin yazılmasına, əlbəttə ki, səbəb Azərbaycan reallıqları, dövlətimizin tarixi və müasir inkişafıdır. Elə Pakistanın "Diplomatic Focus" jurnalında təntənəli qeyd olunmuş Azərbaycanın milli bayramı - Respublika Günü Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və tarixi əhəmiyyəti, müasir Azərbaycanın inkişafı, ölkənin iqtisadiyyatı və turizm sektoru, Heydər Əliyev Fondunun fəaliyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materiallar yerləşdirilib. Bundan başqa, xüsusi buraxılışda Azərbaycan hərbi kontingentinin Pakistan Günü ilə bağlı paradda iştirakı, Heydər Əliyev Fondunun dəstəyi ilə uşaqlar üçün təşkil olunmuş tədbir və iftar yeməyi və s. məqalələr dərc olunub.




### REGİONUN LİDER DÖVLƏTİNƏ ÇEVRİLƏN AZƏRBAYCAN DİPLOMATİYA SAHƏSİNDƏ UĞURLAR ƏLDƏ EDİB










Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi ilə bağlı yazıya da xüsusi buraxılışda yer ayrılıb. Müsəlman Şərqində ilk demokratik respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyanın rolunu nəzərə alaraq və 1919-cu il iyul ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın qəbul edildiyini əsas tutaraq, 2007-ci il avqustun 24-də Azərbaycan Prezidenti İlham Əliyev hər il iyulun 9-nun Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Diplomatiya gününün müəyyən olunması ilə bağlı bir neçə təkliflər nəzərdən keçirilib, o cümlədən, Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlə imzaladığı ilk müqaviləsi - Osmanlı Türkiyəsi ilə bağlanan müqavilə günü, Paris Sülh Konfransında Antanta dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanındığı gün və s. Lakin nəticədə, qərara alınıb ki, arxivlərdən Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə aid tapılmış ilk rəsmi sənəd 1919-cu il 9 iyul tarixli Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimat olduğundan, məhz bu tarix diplomatiya gününün əsasını təşkil etsin. Azərbaycan diplomatiyası ilk addımlarını atarkən - 1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukraynanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərib. Qeyd edək ki, hazırda Bakıda 66 ölkənin və 11 beynəlxalq təşkilatın diplomatik missiyaları fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanın xaricdə 59 səfirliyi, beynəlxalq təşkilatların yanında 5 daimi nümayəndəliyi və 9 baş konsulluğu ölkəmizi təmsil edir.

28 May - Respublika Günü və Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyinə həsr olunmuş bölmədə 1918-ci ildə daxili və xarici çətinliklərin olduğu bir dövrdə, imperiyanın çökməsi nəticəsində müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından, bir il sonra dövlətin Xarici İşlər Nazirliyinin təsis edilməsindən, həmçinin müasir Azərbaycanın əldə etdiyi inkişaf və nailiyyətlər, Azərbaycan-Pakistan münasibətlərinin indiki vəziyyəti ilə bağlı oxuculara məlumat verilib.

### AZƏRBAYCAN BEYNƏLXALQ PLATFORMALARDA MÖVQEYİNİ QƏTİYYƏTLƏ MÜDAFİƏ EDİR

Xüsusi buraxılışda, həmçinin 1993-2003-cü illərdə və daha sonra Azərbaycanın keçdiyi yola nəzər salınıb. 1993-cü ildə müstəqil Azərbaycanın Prezidenti seçilən Heydər Əliyevin rəhbərliyi ilə ölkədə siyasi və iqtisadi sabitliyin bərqərar olunduğu, həmçinin ictimai həyatın müxtəlif istiqamətlərində, eləcə də insan hüquqları və demokratiya sahəsində inkişafa start verildiyi, Azərbaycan Respublikasının Yeni Konstitusiyasının hazırlanaraq, qəbul edildiyi diqqətə çatdırılıb. Ümummilli Liderin rəhbərliyi ilə xarici siyasət xəttinin qlobal və regional gerçəkliklərə uyğun yenidən qurulduğu, məhz bu siyasətin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində, hazırda Azərbaycanın bütün beynəlxalq platformalarda öz mövqeyini qətiyyətlə müdafiə etdiyi və söz sahibinə çevrildiyi vurğulanıb. Bu gün ölkəmiz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara və mövqelərimizin dünya səviyyəsində müdafiə edilməsinə əsaslanan müstəqil, çoxşaxəli, balanslı və fəal xarici siyasət yeridir. Bu gün Azərbaycan böyük layihələrin təşəbbüskarı və iştirakçısı qismində regional əməkdaşlığı inkişaf etdirən və beynəlxalq nüfuza malik olan bir dövlətdir. Hazırda etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanın xarici siyasət uğurları qonşu ölkələrlə və dünyanın digər dövlətləri ilə balanslaşdırılmış münasibətlərin qurulması, qarşılıqlı maraqlardan irəli gələn bərabər dialoq və əməkdaşlığın həyata keçirilməsinə əsaslanır. Dövlətimizin başçısı sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini uğurla müdafiə edir.

Xüsusi buraxılışda 1828-ci ildə imzalanan "Türkmənçay" müqaviləsindən sonra ermənilərin tarixi Azərbaycan ərazilərinə köçürüldüyü, məhz bundan sonra onların müsəlman türklərə, o cümlədən azərbaycanlılara qarşı aqressiv yanaşmaları da qeyd olunub. Müasir dövrdə başlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə diqqət çəkilib, beynəlxalq təşkilatların bu məsələ ilə bağlı qəbul etdikləri qətnamələrə və erməni təcavüzünün nəticələri barədə hazırlanmış statistik xəritəyə də yer verilib.

Ermənistanın ölkəmizə qarşı təcavüzü və nəticədə, Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu da daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizinin işğalı və bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarından didərgin salınması Azərbaycanın ən çətin və ən ağrılı problemidir. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəniyyət və dini abidələrin dağıdılması, talan və təhqir edilməsi, mənimsənilməsi kimi məqsədli siyasət həyata keçirir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü və sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır.

Müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar aparılır, Azərbaycan regionun lider dövlətinə çevrilib və diplomatiya sahəsində uğurlar əldə edilib. Bu və ya digər ictimai-siyasi proseslər dünya mətbuatının diqqətindən yayınmır və reallıqlar kənardan daha aydın görünür.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Milli Mətbuat Günü münasibətilə keçirilmiş müsabiqənin nəticələri təsdiq edilib



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsinə və təsdiqinə həsr olunmuş iclası keçirilib.

Fonddan AZƏRTAC-a bildiriblər ki, Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdə olan məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İcraçı direktor müsabiqənin 2019-cu il iyunun 8-dən iyulun 12-dək Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçirildiyini, müsabiqəyə 56 KİV-dən 142 yazının təqdim edildiyini bildirib.

Sonra müsabiqənin ekspertlərin rəyləri əsasında hazırlanmış yekun nəticələri iclasın müzakirəsinə təqdim edilib. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, Ramiz Əskər, İntiqam Hümbətov, Ayaz Mirzəyev, Əvəz Rüstəmov və Rasim Həsənov Fondun keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyini stimullaşdırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması baxımından əhəmiyyətini qeyd ediblər. Müzakirələrin yekununda müsabiqənin şərtlərinə uyğun olaraq 19 istiqamət üzrə qaliblər elan edilib, ümumilikdə 111 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub.

# Kirli məqsədlərdən doğan xəyanət faktoru

*Cəmiyyət bəlalərinə aşırı nifrət edir, qanun qarşısında cavab verəcəkləri günü səbirsizliklə gözləyir*



***Siyasi mübarizəni şərəf və ləyaqət məfhumundan üstün tutaraq, onu opponentinə qarşı söyüş və həqarətlərlə tətbiq etmək, ilk növbədə, milli-mənəvi əxlaqi dəyərlərimizi ayaqlar altına atmaq anlamını daşıyır. Bunu edənlər isə, bu gün sosial şəbəkələrdə "xalq", "millət" deyə bağırıb, özlərinə dividendlər qazanmağa cəhd edən müxalifət "liderləri" və onların "beşinci kolon" nümayəndələridirlər ki, sözügedən vasitələrlə guya öz "mübarizələrində" üstünlük qazandıqlarını sanırlar.***

Amma bunun belə olmadığını özləri də yaxşı bilirlər. Bilirlər ki, sərgilədikləri hərəkətəri sağlam düşüncəli rəy tərəfindən ən sərt şəkildə və hiddətlə qınanılır. Daha doğrusu, söyüş müxalifəti deyilən ucuz yığnaq, bu yolla üzləşdikləri məğlubiyyətlərini, əslində, etiraf etmiş olurlar. Yəni siyasi rəqiblərinə tərəf nə qədər çox söyüşlərə, həqarətlərə, küfrlərlə yol verirlərsə, bir o qədər də məğlub olduqlarını etiraf edirlər.

## Hər bir şəxs etdiyi əmələ görə qanun qarşısında məsuliyyət daşıyır

Bələləri unutmamalıdırlar ki, özlərinə rəva görmədikləri söyüşləri başqalarına qarşı tətbiq edirlərsə, bunun hüquqi tərəfləri də var. Bütün sivil ölkələrdə olduğu kimi, Azərbaycan da dünyada beynəlxalq Konvensiylara və hüquqi prinsiplərə daim əməl edən dövlət kimi tanınır. Hər bir Azərbaycan vətəndaşı vəzifəsindən, sosial təbəqəsindən asılı olmayaraq, qanun qarşısında bərabərdir və hər bir şəxs törətdiyi əmələ görə, qanun qarşısında məsuliyyət daşıyır. Bəli, bu gün xarici ölkələrdə, necə deyərlər, "şirə, pələngə" dönən söyüş dağarcıqları da var ki, onlar, onsuz da, Azərbaycanın dövlətçilik maraqlarına qarşı düşmənçilik mövqeyi nümayiş etdirirlər və düşünürlər ki, "siyasi sığınacaq" aldıqları hər hansı Avropa ölkəsində oturub, sosial şəbəkələr vasitəsi ilə dövlətinin mövqeyini qoruyanları çirkin söyüş hədəflərinə tuturlarsa, onların bu əməlləri cavabsız qalacaq və s. Bu, heç də belə deyil, çünki beynəlxalq Konvensiyalar və qanunlar mövcuddur, zamanı çatanda, hər kəs haqq etdiyi cəzasını mütləq alacaq. Yəni bu reallığı bəlkə də bir çoxları qeyri-reallıq kimi düşünə bilərlər, amma ələhəzrət zaman və qanun hər şeyi tam dəqiqliyi ilə sübut edəcək, özü də tezliklə!

## Avropa ölkələrinə bit-birələrtək daraşmış cinayətkar çetelər daha bir faktoru unutmamalıdırlar ki...

"Siyasi mühacir", "dissident" adı altında və onlara dağıdıcı müxalifət partiyalarının "liderləri" tərəfindən verilmiş saxta sənədlərlə Avropa ölkələrinə bit-birələrtək daraşmış bu cinayətkar çetelər daha bir faktoru unutmamalıdırlar ki, onların bir çoxu hələ də yaşadıqları ölkələrdə oturum izni almayıblar və hər an bu ölkələrin miqrasiya xidmətləri sənədlərini yoxlayıb, saxtakarlıqlarını ifşa edə bilər. Çox yeqin ki, son bir neçə ildə Azərbaycan dövlətinin rəhbərliyindən tutmuş, dövlətin maraqlarını dəstəkləyən insanları söyüş dalğasına mürtəkib edənlər, qısa zamanda, ciddi yoxlamalara məruz qalacaqlar.

İndi isə, qayıdaq sözügedən məsələnin digər tərəfinə. Bayaq da, qeyd elədiyimiz kimi, Azərbaycan dövlətinə qarşı aparılan bütün qarayaxma, söyüş və təhqir kampaniyaları, son nəticədə, ağır fiaskoya uğrayıb və çirkin məqsədləri dəfələrlə ifşa olunub. Çünki Azərbaycan cəmiyyəti Avropada oturub, "Facebook", "Youtube" və s. sosial şəbəkə vasitələri ilə hər gün canlı yayımlar etmək kimi öhdəliyi olanların xəyanətkar davranışlarına heç vaxt dəstək verməyib. Bu vaxta qədər hansı yalanlarla çıxış ediblərsə, son nəticədə, ifşa olunaraq, rüsvayçı vəziyyətə düşüblər.

## Məhəmməd Mirzəlinin evində arvadının ona "şərəfsiz" deyib, onun isə bu sözü özünə söyüş kimi götürməməsi etirafını da incələsək...

Cəmiyyət üçün artıq hər şey aydındır: bu cinayətkar dəstənin üzvləri yalnız xarici xüsusi xidmət orqanları qarşısında deyil, eləcə də, erməni lobbisinin pulları qarşılığında (!) öhdəlik götürüb, öz dövlətlərinə qarşı çirkin oyunlar qururlar. Digər tərəfdən, biz bu ünsürlərin bir-birləri ilə də qızğın qarşıdurmala getdiklərini dəfələrlə görmüşük. Məhəmməd Mirzəli ilə Tural Sadıqlının, hətta canlı yayımları vasitəsi ilə bir-birlərinə "şərəfsiz" və daha ağır söyüşlər söyüb, üzlərinə tüpürmələrinə qədər gördüyümüz bu reallıqlar, onların hansı qeyri-insanlığa malik olduqlarının bariz göstəricisidir.

Yaxud M.Mirzəlinin evində arvadının ona "şərəfsiz" deyib, onun isə bu sözü özünə söyüş kimi götürməməsi etirafını da incələsək, bu ünsürün hər şeyini pula satdığını, bundan sonra da sata biləcəyini əminliklə deyə bilərik. Bu reallığı Emin Milli, Orduxan Teymurxan, Qənimət Zahid, Sevinc Osmanqızı və başqaları arasında da görmüşük, bilirik və zaman-zaman ictimai rəyin diqqətinə çatdırırıq. Bütün bunlar isə, sübut edir ki, bunların dərdi pul dərdiymiş - pullarını ödə və bir-birlərinə necə söyüş söydüklərini müşahidə et. Bu, onların daxillərindəki çirkablıqlarının açıq mənzərəsidir və söz yox ki, cəmiyyət bələlərinə nifrət edir, eyni zamanda, qanun qarşısında cavab verəcəkləri günü səbirsizliklə gözləyir!

*Rövşən NURƏDDİNOĞLU*

# Belçika mafioz strukturlarla əməkdaşlıqda ittiham olunan Ermənistan konsulunu İspaniyaya ekstradisiya edir


elPeriódico
CATALUNYA | GLOBAL
SOCIEDAD
ORDEN EUROPEA DE DETENCIÓN
**Bélgica entrega a España al cónsul de Armenia, reclamado por mafioso**
Un juzgado de Terrassa lo acusa de falsificar pasaportes para una organización criminal asentada en Barcelona y Madrid a cambio de "ordenadores para la embajada"
La investigación de Mossos y Policía reveló la "estrecha relación" entre el cabecilla de la banda y el diplomático: "El cónsul es mi amigo y no habrá problema"

Belçika Ermənistan mafioz strukturlarla əməkdaşlıqda ittiham olunan sabiq konsulunu İspaniyaya ekstradisiya edir. SİA xəbər verir ki, İspaniyanın "El Perdiodico" qəzetinin məlumatına görə, aprelin 24-də Hollandiya aeroportunda Ermənistanın İspaniyadakı sabiq konsulu Tiqran Babayan tutulub. O, Madriddə və Barselonada Artur Vardanyanın rəhbərlik etdiyi kriminal strukturlarla əməkdaşlıqda ittiham edilib.

Tiqran Babayan tütün qaçaqmalçılığı ilə məşğul olan şəxslərə saxta pasportların və sənədlərin, həmçinin vizaların verilməsində aldığı rüşvətə görə İspaniya məhkəməsi qarşısında duracaq. Konsulun öz vəzifəsindən sui-istifadə etməsi faktı ittihamı daha da ağırlaşdırır. Çünki İspaniya hakimiyyət orqanları tərəfindən saxlanılan zaman sənədin həqiqi olmasına şübhə yarandığı halda, konsula müraciət edilir. Konsul da, öz növbəsində, sənədi verməklə onun orijinallığını təsdiqləyir.

# Rüşvətxorluq Ermənistanı bürüyüb



"Sevan Milli Parkı" rüşvət müqabilində göldə qanunsuz balıq ovlanmasına icazə verib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları istintaq hərəkətləri və korrupsiya ilə mübarizə çərçivəsində Milli Parkın bir neçə filialının səlahiyyətliləri tərəfindən səlahiyyətlərdən sui-istifadə etmə və rüşvət alma halları aşkar ediblər.

Məlumatda deyilir ki, "Vardenis", "Arevik" və "Sevan" MMC-nin rəhbər və müfəttişləri rüşvət müqabilində bir qrup vətəndaşa kommersiya məqsədləri üçün böyük miqyasda balıq tutulmasına və dövlətə böyük miqdarda ziyan vurmasına imkan yaradıblar. Məlumatda qeyd edildiyi kimi Ermənistan Respublikasının Milli Təhlükəsizlik Xidmətinin İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanıb və hazırsdaistintaq davam edir.

*İnam Hacıyev*

# Ermənistanda təhlükəli AES-in təmirə dayandırılması müddəti təxirə salınıb



Ermənistanda ekoloji cəhətdən təhlükəli "Metsamor" AES-in təmirə dayandırılması müddəti təxirə salınıb. AZƏRTAC "Strana Rosatom" nəşrinə istinadla xəbər verir ki, bu məlumatı qəzetə müsahibəsində "Rusatom Servis" şirkətinin baş direktoru Yevgeni Saltıkov verib.

Y.Saltıkov qeyd edib ki, tezliklə Rusiya və Ermənistanın Maliyyə nazirlikləri Yerevana bu məqsədlər verilən kreditlərin müddətinin uzadılmasını müzakirə edəcəklər. "Metsamor" AES-in əsaslı təmirini həyata keçirəcək olan bu şirkət Rusiya hökumətindən 15 il müddətinə alacağı 270 milyon dollaradək kredit və 30 milyon dollar qrant hesabına fəaliyyət göstərəcək. Bununla bağlı 2014-cü ildə saziş imzalansa da, hələ vəsaitin verilməsi və təmirə başlanılması gerçəkləşməyib. Belə ki, AES-in işinin 2019-cu ilin sonunadək dayandırılması nəzərdə tutulurdu, lakin bu plan yenə də təxirə salınıb. Qeyd olunur ki, bu stansiyada generatorların turbininin dəyişdirilməsi, nüvə reaktorunun metal divarlarının möhkəmləndirilməsi işləri aparılmalıdır. "Metsamor" AES-də ikinci enerji blokunun da istismar müddəti 2016-cı ildə başa çatıb. Artıq köhnəlmiş AES təkcə Ermənistana deyil, bütün regiona ciddi təhlükə mənbəyinə çevrilib.

# Gömrük nəzarətinə bəyan edilməyən siqaretlər, spirtli içkilər və idman qidaları aşkarlanıb



Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumatlar əsasında iki fakt üzrə müxtəlif markalı siqaretlərin, spirtli içkilərin və idman qidalarının qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi cəhdinin qarşısı alınıb.

Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn, Azərbaycan vətəndaşlarının idarə etdiyi "VAZ 2106" markalı avtomobillər saxlanılıb və gömrük baxışı keçirilib. Baxış zamanı avtomobillərin gizli saxlanc yerlərindən 1200 ədəd "Marlboro", 3400 ədəd "King" markalı siqaret, hər biri 0,5 litr olmaqla 6 "Jameson" markalı spirtli içki və üzərində "Mega Max" yazısı olan 32 ədəd idman qidası aşkarlanıb. Faktlarla bağlı araşdırma aparılır.



# Ağdamın işğalından 26 il ötür

Bu gün Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından 26 il keçir. 1993-cü ilin iyun-iyul aylarında Gəncədə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirmək imkanı verdi. Ağdamın müdafiəsini həyata keçirən yerli özünümüdafiə batalyonları erməni silahlı birləşmələri ilə qanlı döyüşlərə girdi. Ancaq heç bir kömək almayan batalyonların döyüşçüləri iyulun 23-də geri çəkilməyə məcbur oldular. Bununla da, 43 gün düşmənə sinə gərmiş Ağdam şəhəri süqut etdi. İşğalçı erməni silahlı birləşmələri evlərə od vurdu, mədəniyyət abidələrini dağıtdı, insanların əmlaklarını qarət etdi, şəhəri tərk edə bilməyən dinc əhaliyə amansız divan tutdu. Ağdam rayonunun 1094 kvadratkilometrlik ərazisinin 882 kvadratkilometri zəbt edildi, 128 min nəfər doğma ev-eşiyindən didərgin düşdü. İşğal nəticəsində 122 kənd, 24 min 446 yaşayış binası, 48 sənaye və tikinti müəssisəsi, 160 məktəb binası, 65 səhiyyə mərkəzi, 373 mədəniyyət ocağı, 1 teatr, 3 məscid və 2 muzey yandırılıb məhv edildi. Ağdamda olan dünya əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri sırasına XIV əsri əhatə edən qiymətli nümunələr daxildir. Məsələn, Ağdamın Xaçın-Dərbəndli kəndində olan Qulu Musaoğlu türbəsi 1314-cü ilə aid olan abidədir. Belə bir tarixi dövrü əhatə edən abidələrin işğal altında olması, ermənilərin Azərbaycanın tarixini saxtalaşdırmaq üçün müəyyən imkanlar açır. Tarixi abidələri də - Xanoğlu türbəsi, Qarabağ xanı Pənahəli xanın imarəti (XVIII əsr) və türbəsi (XIX əsr), Şahbulaq kimi abidələr Ağdamın minillik tarixindən xəbər verirdi.

Bu gün bütün bu abidələr də işğal altındadır. Ermənilər Ağdam rayonunda olan muzeylərdəki eksponatları da talayıb aparıblar. Belə muzeylərdən Ağdamdakı Çörək Muzeyi, Tarix Ölkəşünaslıq Muzeyi, tarzən Qurban Pirimovun Xatirə Muzeyi, Ağdam Şəkil Qalereyasının adlarını çəkmək olar. Bununla belə, 2002-ci ildə Ağdam Tarix Ölkəşünaslıq Muzeyi rayonun işğal altında olmayan Qaradağlı kəndində bərpa edilib.

Hazırda rayondakı tarixi, mədəni, dini abidələrin əksəriyyəti erməni işğalçıları tərəfindən məhv edilmişdir. Rayonun Xaçındərbənd kəndindəki 1314-cü ildə tikilmiş Qutlu Sarı Musa oğlu Künbəzi, Kəngərli kəndindəki XIV əsrə aid Türbə və Daş abidələr, Papravənd kəndində XVIII əsrə aid gümbəz və məscid, Ağdamda İmarət deyilən yerdə XVIII əsrə aid abidələr, o cümlədən, Xan qızı Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara vəhşicəsinə dağıdılmışdır. Bundan əlavə, dini ibadətgahlardan rayonun Papravənd kəndində yerləşən Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim və digər ziyarətgahlar darmadağın edilmişdir.

Erməni terrorçuları Ağdamın işğalı zamanı ağır hərbi cinayətlər törətdilər. Ağdam Qarabağ müharibəsində ən çox şəhid verən rayondur. Ermənilərlə döyüşlərdə 6 minə yaxın rayon sakini şəhid olub. Onlardan 16-sı milli qəhrəmandır. Rayonun 160 min nəfər əhalisindən 128 mini ev-eşiyindən didərgin düşüb. Onlar ölkənin 62 şəhər və rayonunda məskunlaşıblar. İşğal nəticəsində rayona 3 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan dəyib. Ağdamın işğalı ilə güclü iqtisadiyyatı, zəngin mədəni irsi olan bir bölgə itirildi.

Ümummilli Lider Heydər Əliyevin səyləri nəticəsində, rayonun tamamilə işğalına yol verilmədi. Dağıdılmış kommunikasiyalar bərpa edildi, həyat üçün zəruri şərait yaradıldı. İdarə, müəssisə və təsərrüfatların fəaliyyəti bərpa edildi, iqtisadiyyat dirçəldi, digər yerlərdə məskunlaşmış ağdamlıların rayonla hərtərəfli əlaqəsi sahmana salındı. Ərazisinin üçdə ikisi itirilsə də, Ağdam rayon kimi yaşadı, ağdamlılar isə qurub-yaratmaq ənənələrini davam etdirdilər.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Ağdama göstərilən qayğının hüdudlarını xeyli genişləndirdi. Dövlətimizin başçısının bu rayona hər gəlişi quruculuq işlərinə yeni miqyas və dinamizm gətirdi.

Hazırda rayonun inzibati mərkəzi Quzanlı qəsəbəsində yerləşir. Bu qəsəbənin, eləcə də, Ağdamın digər kəndlərinin abadlaşdırılması istiqamətində mühüm işlər görülüb. İqtisadiyyat yüksək inkişaf yoluna çıxarılıb.

Bu gün məcburi köçkün həyatı yaşayan ağdamlıların ən böyük arzusu tezliklə doğma yurda qayıtmaqdır. Hər bir ağdamlı əmindir ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gündən-günə qüdrətlənən ölkəmizin üçrəngli bayrağı Azərbaycan ərazisinin hər yerində dalğalanacaq - işğal altındakı torpaqlarımız azad ediləcək.

**ZÜMRÜD**

## Azərbaycanlıların 83,4 faizi xaricə dəmir yolu və avtomobil nəqliyyatından istifadə edərək gedib

Cari ilin yanvar-iyun aylarında xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının 83,4 faizi dəmir yolu və avtomobil nəqliyyatından istifadə edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, xarici ölkələrə səfər edən azərbaycanlıların 15,8 faizi hava, 0,8 faizi isə su nəqliyyatına üstünlük verib.



## Mübariz Əhmədoğlu: "Paşinyan "Dağlıq Qarabağ əhalisi"nin marağını tanımalıdır"



Yenə də Ermənistanın baş naziri xarici siyasətdə naşı olduğunu göstərməkdədir. Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu sözügedən məsələ ilə bağlı bildirib ki, Nikol Paşinyan bəzən öz "icadlarına" vurulur və onları tez-tez təkrarlayır: "Onun belə icadlarından biri "Dağlıq Qarabağ tənzimlənməsi variantının Dağlıq Qarabağ, Ermənistan və Azərbaycan xalqlarının maraqlarına cavab verməlidir" fikridir. N.Paşinyanın bu tezisini ermənilər arasında rəy fomalaşdırmaq kimi də başa düşmək olar. Paşinyan ermənilərə aşılayır ki, Azərbaycanın maraqları tanınmadan Dağlıq Qarabağ məsələsi həll olunmayacaq. Ermənilərin əksəriyyətinin fikrincə, Dağlıq Qarabağ yalnız ermənilərin marağı əsasında həllini tapmalıdır. Paşinyanın bu fikrində beynəlxalq ictimaiyyəti aldatmaq, beynəlxalq aləmdə əksəriyyətin məlumatsızlığından sui-istifadə konteksti də var. "Artsax" (Dağlıq Qarabağ) xalqı və yaxud Dağlıq Qarabağ ermənisi adlı xalq yoxdur. Dağlıq Qarabağdakı ermənilər İrandan köçürüldükləri üçün dillərində 15 faiz fars-türk sözləri var".

M.Əhmədoğlu onu da bildirib ki, Paşinyan beynəlxalq aləmə hörmət etmək vərdişinə sahiblənməlidir: "Qərbi ermənilərlə Yerevandakı ermənilər arasındakı fərq, təxminən, 80 faizdir. Hətta bir-birlərinin dillərini başa düşmürlər. Ermənistan erməni ilə diaspor ermənisinin danışması üçün tərcüməçi lazım olur. N.Paşinyan beynəlxalq aləmə hörmət etmək vərdişinə sahiblənməlidir. Görünür N.Paşinyan vəzifədən getməyi düşündüyü üçün beynəlxalq ictimaiyyətə hörmət anlayışını ağlına gətirmir. ATƏT-in Minsk Qrupu həmsədrlərinin hazırladığı sənədlərdə də "Dağlıq Qarabağ əhalisi" ifadəsi mövcuddur. Dağlıq Qarabağın statusu da daxil olmaqla, bütün vacib məsələləri "Dağlıq Qarabağ əhalisi" müəyyən etməlidir. "Dağlıq Qarabağ əhalisi" dedikdə, Dağlıq Qarabağın erməniləri və azərbaycanlıların birgə məcmuyu başa düşülür".

Politoloqun sözlərinə görə, N.Paşinyan ATƏT-in Minsk Qrupunu qaçırtmaq istəmirsə, "Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi "Dağlıq Qarabağ əhalisinin" maraqlarına xidmət etməlidir" tezisini aktuallaşdırmalıdır: "N.Paşinyan ancaq öz-özünü aldada bilər. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməmiş qalması Ermənistanda problemlərin yaranmasını xeyli sürətləndirib".

**R.HÜSEYNOVA**

## Yarım ildə Azərbaycana 185 ölkədən 1,4 milyon əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib



Yanvar-iyun aylarında Azərbaycana 185 ölkədən 1 milyon 410,7 min və ya ötən ilin eyni ayları ilə müqayisədə 6,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, gələnlərin 29,4 faizi Rusiya, 24,3 faizi Gürcüstan, 10,5 faizi Türkiyə, 7,5 faizi İran, 2,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,4 faizi Səudiyyə Ərəbistanı, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, 1,5 faizi Türkmənistan, hər birindən 1,4 faiz olmaqla Böyük Britaniya, Qazaxıstan və İraq, 1,3 faizi Pakistan, 12,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 68 faizini kişilər, 32 faizini isə qadınlar təşkil edib.

Altı ayda ölkəmizə gələnlərin sayında daha çox artım Misir (83,1 faiz), Türkmənistan (81 faiz), Hindistan (80,3 faiz), Çin (77,1 faiz), Səudiyyə Ərəbistanı (76,7 faiz), Macarıstan (52,4 faiz), Böyük Britaniya (35,7 faiz), Kanada (30,8 faiz), Koreya Respublikası (29,5 faiz), Almaniya (27,2 faiz), Yaponiya (24,6 faiz), Pakistan (24,4 faiz), Gürcüstan (22,8 faiz) və Polşa (20,2 faiz) vətəndaşları arasında qeydə alınıb. Yarım ildə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 24,3 faiz artaraq 66,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 5 faiz artaraq 502,5 min nəfər olub.

**Xarici ölkələrə gedən azərbaycanlıların sayı 2,5 milyon nəfəri ötüb**

Altı ayda xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25,8 faiz artaraq 2 milyon 540,9 min nəfər olub. Ölkə vətəndaşlarının 39,1 faizi İrana, 27,1 faizi Gürcüstana, 18,1 faizi Rusiyaya, 10,2 faizi Türkiyəyə, 5,5 faizi isə digər ölkələrə gedib. Gedənlərin 65,7 faizini kişilər, 34,3 faizini qadınlar təşkil edib. Hesabat dövründə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 71,4 faiz, Gürcüstana gedənlərin sayı 11,3 faiz, Rusiyaya gedənlərin sayı 7,3 faiz, Türkiyəyə gedənlərin sayı isə 1,4 faiz artıb.

## Altı ayda ölkəyə gələn əcnəbilərin 40 faizdən çoxu hava nəqliyyatından istifadə edib



Bu ilin yanvar-iyun aylarında Azərbaycana gələn əcnəbilərin 40,2 faizi hava nəqliyyatından istifadə edib. Dövlət Statistika Komitəsindən verilən açıqlamada bildirilib ki, hesabat dövründə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 59 faizi ölkəmizə dəmir yolu və avtomobil, 0,8 faizi isə su nəqliyyatı ilə gəlib.

# Ermənistan iflasa doğru

*Küçə təfəkkürlü Paşinyanın küçə siyasəti onun özünü tora salıb*

***Erməni xalqı ötən il "küçə demokratı" Nikol Paşinyanı hakimiyyətə gətirərkən, elə zənn etdi ki, küçədən xalqla "bir olubsa", hər şey yaxşı olacaq. Ancaq sən saydığını say, gör sizin küçədən gətirdiyiniz küçə təfəkkürlü Nikolunuz nə sayacaq? Dövlət siyasətindən xəbərsiz olan Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən erməni xalqı əvvəlki illərə yalvarır. 2019-cu ilin işğalçı ölkəyə bahalaşma ilə qədəm qoyması, ilk gündən özünü göstərdi. Bu gün cari ilin 8 ayını yaşayan Ermənistanda həm siyasi, həm də iqtisadi vəziyyət gərgin olaraq qalmaqdadır.***



Bunun əsas səbəbi isə, Nikolun fəaliyyətə başladığı ilk gündən, Rusiyaya qarşı sərsəm bəyanatlar ünvanlaması olub. Rusiya prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikola dəfələrlə xəbərdarlıq ismarıcları və mesajları göndərməklə, ona bu oyunlardan əl çəkməyi bildirdisə də, Paşinyan yenə də sərsəm bəyanatlar verməkdən çəkinmədi. Belə bir atalar sözü var: keçinin buynuzu qaşınanda, çobanın çomağına sürtünər. Elə, bu səbəbdən də, V.Putin Yeni il münasibətilə bütün MDB ölkələri prezidentlərinə, o cümlədən, baş nazir əvəzi Paşinyana deyil, Ermənistan prezidenti Armen Sarkisyana təbrik göndərdi. Üstəlik, Ermənistanın eksprezidentləri - Serj Sarkisyanı və hətta həbsdə olan Robert Koçaryanı da təbrik etdi. Elə o gündən də, Paşinyan hakimiyyətinin kritik günləri başladı.

## Ermənistan - iflasdan-iflasa

Məhz elə, bu səbəbdən də, Moskva səfərlərindən həmişə əli ətəyindən uzun qayıdan Paşinyan başqa münasibət də görə bilməzdi. Ancaq Paşinyan anlamadı ki, Rusiya Ermənistanın davranışlarına ona görə dözür ki, regional maraqlarını qorusun, keçmiş SSRİ məkanında əsas söz sahibi olmaq kimi qüdrətini, Cənubi Qafqazın təhlükəsizliyinin ondan asılı olduğunu nümayiş etdirsin və sairə. Bir sözlə, bütün bu situasiya, bir daha onu göstərir ki, Paşinyan iqtidarı üçün, artıq kritik günlər elə 2019-cu ilin ilk günlərindən başlayıb, ilin sonuna kimi davam edəcək.

O zaman xalq yenidən ağır sosial tələblərlə etiraz aksiyalarına çıxacaq, necə ki, bu gün də Ermənistanda aksiyalar davam etməkdədir. Paşinyan isə, hələ də Qərbin sözdə verdiyi vədlərinə inanır. Kreml isə, çalışır ki, Paşinyanın qərbpərəst siyasətinin qarşısını alsın. Ancaq bu, bir faktordur ki, bu ölkədə əsaslı islahatlar mümkün deyil. Çünki bu ölkə işğalçı siyasətinə görə blokadada olan ölkədir və Rusiyanın forpostudur. Bu baxımdan, Yerevanın Moskvaya qarşı demarşı, ona baha başa gələ bilər.

## Paşinyan böyük güclərin və erməni lobbisinin oyuncaq lideri

Politoloqların sözlərinə görə, bu gün işğalçı Ermənistanın sosial-iqtisadi cəhətdən vəziyyətinin daha da pisləşməsinin səbəbi, məhz liderlərin istər siyasi, istər iqtisadi, istərsə də hərbi sahədə savadsızlığıdır. Bu baxımdan, Nikol Paşinyanın və Serj Sarkisyan bu deyilən sahələrdə eyni səviyyəyə malikdirlər. Nikol Paşinyan baş nazir seçilərkən, xalqa müraciətində demişdir ki, bundan sonra Ermənistan iqtisadiyyatı yüksələn xətlə inkişaf edəcək və bütün sferalarda islahatlar aparılacaq. Ancaq Paşinyanın hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar, ölkədə heç bir inkişaf və islahatların getmədiyini qeyd edir. Sabiq prezident Serj Sarkisyanın dövründən qalan tənəzzül, iflas, korrupsiya və bürokratik əngəllər bu gün də davam etməklə, geridə qalmış ölkəni uçuruma aparır və bu gün Rusiyanın köməyi hesabına yaşadığı sirr deyil.

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Ona görə də, Ermənistanın bir çıxış yolu var: nə qədər ki, Ermənistan Azərbayanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi və siyasi məhrumiyyətlərə və məşəqqətlərə düçar olacaq. Və görünür, hələ də N.Paşinyan bunu anlamaq istəmir. Çünki müstəqil deyil, böyük güclərin və erməni lobbisinin əlində bir oyuncaqdır. Qondarma gedişlər etməklə, bu ölkə, itirməkdə olan siyasi imicini möhkəmləndirməyə çalışır.

Ümumiyyətlə, real vəziyyət, onu sübut edir ki, Ermənistanın bir dövlət olaraq, mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən, daha doğrusu, Ermənistanın sosial bəlalardan xilas yolu rəsmi Bakıdan keçir.

## Boş vədlər və sözçülüyün "real töhfələri"

Paşinyanın "Aravot" qəzetinə veriyi müsahibəyə diqqət edin: "Son 20-25 ildə Rusiya müxtəlif müqavilələrlə bizim suverenliyimizi bizdən yavaş-yavaş geri alır. Biz nə görürük: bəli, bu, beynəlxalq təcrübədə belə qəbul edilib. Nə qəbul edilib? Bu razılaşmalar nədən ibarətdir? Rusiya gəlib bizə verdiyi "İsgəndər" raketlərinin yerində olub-olmadığını, onların nəzərdə tutulan məqsəd üçün istifadə edilib-edilmədiyini yoxlamalıdır? Bu nəzarət mexanizminə görə, biz "İsgəndər"dən istifadə edərkən, bizə icazə verilib-verilmədiyini dəqiqləşdirməliyik".

Belə bir bəyanatı, həmin silahları öz vəsaiti hesabına və bir neçə mənbədən əldə edə bilən ölkə rəhbərləri belə, səsləndirmir. Əgər Rusiya silahı olmasaydı, Ermənistanın harada və necə olacağı barədə heç kim zəmanətli proqnoz verə bilməzdi.

Əgər Koçaryan hakimiyyəti dövründə öz rəqiblərini rahatlıqla əzirdisə, Sarkisyan isə əlavə düşmən qazanmamaq üçün onların vəzifələrini və ya mövqelərini dəyişdirməklə (bəlkə də Şahmat Federasiyanın prezidenti olması ilə əlaqəli idi, ona hərdən "şahmatçı" da deyirdilər) kifayətlənirdisə, Paşinyan, fərqli olaraq, rəqiblərindən də yararlanmağa, onları öz tərəfinə çəkməyə çalışır.

## "Küçə demokratı, yalana son qoy!"

Beləliklə, bu gün Ermənistan sosial problemlərin məngənəsində boğulmaqdan xilas olmaq üçün çıxış yolunu etiraz aksiyaları keçirməkdə görür. Göründüyü kimi, Sarkisyan-Paşinyan, eyni əqidəli və eyni xislətlidirlər. Əgər Sarkisyanın istefa ərəfəsi günlərini erməni xalqı "Talana, yalana son qoy, Sarkisyan!" şüarı ilə çıxış edirdilərsə, indi də Payinyana "Küçə demokratı, yalan vədlərə son qoy!" şüarını səsləndirirlər. Erməni mətbuatının yazdığına görə, ölkədə yaranmış ağır durumla bağlı erməni ekspertləri bildirirlər ki, hər şeyin bir sonu olduğu kimi, Paşinyanın da oyunbazlığının sonunun zamanı gəlir: "Paşinyan küçə təfəkkürü ilə apardığı siyasətin qurbanı özü olacaq".

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Bu faktdır ki, Ermənistanın heç bir sərvəti olmayan, qonşu ölkələrlə iqdisadi potensialı olmayan və nədən qazanıb iqtisadiyyat quracağı bəlli də deyil.

***A.SƏMƏDOVA***

# AzerTelecom Microsoft şirkətinin rəsmi tərəfdaşı oldu

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom informasiya və kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən dünya üzrə tanınmış şirkətlərlə tərəfdaşlıq əlaqələrini genişləndirir.

Ölkənin telekommunikasiya sektorunda artıq 10 ildən çoxdur fəaliyyət göstərən və Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital HUB" proqramını icra edən AzerTelecom şirkəti İKT sektorunun qlobal iştirakçılarından biri olan tanınmış Microsoft şirkətinin rəsmi tərəfdaşı olub.

AzerTelecom

Microsoft şirkəti ilə tərəfdaşlıq AzerTelecom tərəfindən korporativ sektorda müştərilərə ən müxtəlif İT xidmətlərin, məhsul və qabaqcıl həllərin təqdim edilməsinə şərait yaradır. Bu tərəfdaşlıq imkan verir ki, AzerTelecom öz müştərilərinə "Azure" (bulud üzərindən həllər), "Microsoft 365" (korporativ müştərilər üçün zəruri məhsullar toplusu), "Microsoft Windows" (Server və User) məhsulu, Vahid Ünsiyyət - Microsoft Teams (Unified Communication), "Office 365" (İstifadəçilər üçün müxtəlif iş alətləri) və s. məhsul və hphysicallləri təqdim etsin.

Qeyd edək ki, həmçinin Microsoft şirkətinin Server Node avadanlığı AzerTelecom şirkətinin Data Mərkəzində də yerləşdirilib. Müvafiq avadanlığın AzerTelecom şirkətinin Data Mərkəzində yerləşdirilməsi Microsoft korporasiyasının proqram təminatının yeniləmələrinin burada cəmlənərək müştərilərə çatdırılmasını təhlükəsiz, sürətli və fasiləsiz həyata keçirir. Bu zaman müştərilər proqram təminatını mütəmadi yeniləyərkən Avropada və ABŞ-da yerləşən serverlərdən deyil, məhz Azərbaycandakı xüsusi təhlükəsizlik tələblərinə cavab verən və Microsoft-un Data Mərkəzləri ilə sinxronlaşdırılan serverlərdən daha sürətli əldə edə biləcəklər.

AzerTelecom şirkəti Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi Bakcell şirkətinin törəmə müəssisəsidir və 2008-ci ildə təsis edilib. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. AzerTelecom hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. "Digital Hub" proqramının məqsədi ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Rəqəmsal Mərkəzə çevirməkdir. Proqramın reallaşması ölkənin Milli IT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, start-apların, İT arxitekturasının inkişafına mühüm töhfə verəcəkdir. Proqram ümumilikdə ölkənin İKT sisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılması, ölkənin beynəlxalq reytinqlərdə daha öncül sıralara çıxmasına şərait yaradacaqdır.

Microsoft (Nasdaq "MSFT" @microsoft) intellektual bulud və ağıllı texnologiyalar erasında rəqəmsal transformasiya üçün şərait yaradır. Onun missiyası daha böyük nailiyyətlər üçün hər bir insanın və hər bir təşkilatın imkanlarını genişləndirməkdir.

# Türkiyə Suriyada hərbi əməliyyatlara başlaya bilər



***Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Suriyanın şimalında təhlükəsiz zona yaradılması planı baş tutmazsa, o zaman Ankara öz ərazilərinin təhlükəsizliyini təmin etmək üçün Fərat çayının şərqində hərbi əməliyyatlara başlaya bilər.***

Ankara Suriyanın şimal-şərqində təhlükəsizlik zonası yaradılması barədə ABŞ-la danışıqlar aparıb. Vaşinqton bu ərazidə YPG silahlı qruplaşmasını dəstəkləyir. AZƏRTAC xəbər verir ki, M.Çavuşoğlu TRT Haber telekanalına müsahibəsində bu razılaşmanın müddəalarının yerinə yetiriləcəyinə ümidvar olduğunu bildirib. O, Ankaraya səfər edən ABŞ-ın Suriya üzrə xüsusi nümayəndəsi Ceyms Ceffri ilə danışıqlarda da həmin məsələnin diqqət mərkəzində olduğunu söyləyib. Türkiyəli nazirin sözlərinə görə, Ankara YPG silahlılarının həmin ərazidən çıxmasını tələb edir, Vaşinqton isə onlardan "İslam dövləti" terrorçularının tamamilə məhv edilməsində istifadə etmək niyyətindədir. Çavuşoğlu əlavə edib ki, bu məsələ ilə bağlı tərəflər arasında danışıqlar ləng gedir və Türkiyə İdlib əyalətinin döyüş bölgəsinə çevrilməsini istəmir. Eyni zamanda, YPG silahlılarının Manbic şəhərindən çıxarılması planı da yerinə yetirilməyib. "ABŞ rəhbərliyi Ceffrini Ankaraya göndərib və onun gətirdiyi yeni təklifləri müzakirə edəcəyik. Ümidvaram ki, ortaq məxrəcə gələ biləcəyik. İndi konkret addımlar atmaq zamanıdır",-deyə türkiyəli nazir vurğulayıb.

# Küçə əxlaqlı Əli Kərimli

*Və ya məkanı, əqidəsi və mənəviyyatı küçədə yetişən "lider"*

***Bu gün həmin küçə əxlaqına malik olan, mənəviyyatı küçədə yetişən "siyasi mühacir" adı ilə Norveçdə və Finlandiyada hələ də boyunlarında yoğun qızıl zəncir, barmaqlarında iri qaşlı üzüklər, sağ əllərində kiçik "barsetka" çantası tutub dolaşanlar, AXCP sədri Əli Kərimlinin tərbiyəsiz, əxlaqsız və satqınçılıq xüsusiyyətlərinin təsiri altında yetişənlər, məkanı dəyişsələr də, amma özləri dəyişməyiblər və dəyişə də bilməzlər. Çünki bu, o Əli Kərimlidir ki, 1990-cı illərdə küçələrdən iş kabinetlərinə köç edib, amma həmin köçdə küçə ritorikasından və düşüncəsindən, davranış və mədəniyyətindən qurtula bilməyib. O, bu gün də küçə ritorikası, satqın düşüncəsi, əxlaqsız davranış və mədəniyyətsizliyi ilə xalqı küçələrə çağırır. Ə.Kərimli, sən yenidən Mətbuat Günü ərəfəsi "xalq" sözünün mənasını hansı sifətlə anlayırsan ki xalqa da müraciət edirsən?***



Anlamırsan ki, xalq nə narazı elektoratdır, nə sosial baza. Vətəndaşları "milyonları" arxanca aparmaq üçün gərək dəyərli, mənəviyyatlı və əxlaqlı olasan. Ancaq bu kimi milli-mənəvi dəyərlərdən çox-çox uzaq olan sənin kimi satqın, cinayətkar birisinin xalqın adından danışmasının özü cinayətdir. Bir də, Ə.Kərimli kimilərin şüurları bu günə kimi dəyişməyibsə, bundan sonra da dəyişməyəcək. Necə deyərlər, 40-ında öyrənən, gorunda çalar.

Çünki bu, o Ə.Kərimlidir ki, siyasi fəaliyyətinin zahiri ilə batini arasında kəskin fərqlər var. O, sosial şəbəkələrə köç etdiyindən, bu addımını "hakimiyyət məni təqib edir" şüarçılığı ilə örtbasdır etməyə çalışır. Bu yerdə deyirlər: qara məni basınca, mən qaranı... Yalan, böhtan, absurd iddialar, çılğın çağırışlar siyasət deyil, ay küçə adamı, Ə.Kərimli. Məhz buna görədir ki, Azərbaycana qarşı aparılan antimilli "savaş"ın iflasa uğrasa da, abır-həyanın nə demək olduğunu hələ də anlamırsan. Yenə də sosial şəbəkələrdən düşmürsən ki, düşmürsən....

### ""İaşə müxalifəti" nə qədər cəhd etsə də, ölkəmizin suverenliyinə xələl gətirə bilməz"

Bəli, bu, real faktordur. Çünki xaricdən maliyyələşərək, Azərbaycanı gözdən salmağa çalışan şər maşınının əsas "aləti" olan Ə.Kərimli siyasi ekstremizmin ruporları olan Vidadi İsgəndərli, Nahid Cəfərov, Qurban Məmmədov, Orduxan Teymurxan, Tural Sadıqlı və bu kimi satqın "siyasi mühacir"lərə Mətbuat Günü ərəfəsi çağırışlar etmək tapşırığını verməklə, heç bir şeyə nail ola bilməz.

Və bir məqamı da yadında saxla, əxlaqsız, satqın, mənəviyyatsız Ə.Kərimli, bil və agah ol, ölkə başçısı dəfələrlə anti-Azərbaycan qüvvələrə qarşı siyasi iradəsini qəti şəkildə ortaya qoyub. Hətta bu qüvvələrə qarşı Prezidentin İctimai-siyasi Məsələlər üzrə köməkçisi Əli Həsənovun da davamlı yazıları göstərir ki, bu qüvvələr iflasa uğramış bir zümrəni təmsil edir. Ə.Həsənovun təbirincə desək, xaricdən maliyyələşən və idarə olunan "iaşə müxalifəti" nə qədər cəhd etsə də, ölkəmizin suverenliyinə xələl gətirə bilməz.

Eyni zamanda, Azərbaycan xalqının, ölkənin gələcəyini düşünən qurumların belə adekvat münasibəti isə, bir daha göstərir ki, xaricdən maliyyələşən qüvvələr öz antimilli niyyətlərini gerçəkləşdirə bilməyəcəklər, çünki bu ölkənin oturuşmuş bir siyasi qüvvə və iradə idarə edir. Ölkə başçısı İlham Əliyevin siyasi iradəsi qarşısında isə bütün antimilli qüvvələr məğlubiyyətə məhkumdurlar. Və...

### Naturasında xəyanət olan Əli Kərimlilər həmişə zibillikdə olar

Bax, budur, sizin kimi üfunət iyi verənlərin yeri- zibilliklər. Vidadi İsgəndərli, Orduxan Teymurxan, Tural Sadıqlı, Həbib Müntəzir, Qurban Məmmədov, Qənimət Zahid kimi satqınlar məhz beləlırindəndirlər. Və Ə.Kərimli kimi satqınlar, şəbəkəsi ölkəmizin əleyhinə apardıqları "qara piar" kampaniyasının rəngini gündən-günə nə qədər tündləşdirsələr də, heç nəyə nail ola bilməyəcəklər. Çünki Azərbaycan ictimaiyyəti, yaxşı anlayır ki, belələri ancaq onun-bunun beş-üç qəpiyi ilə səs-səsə verərək, zingildəşirlər.

Bax, budur dağıdıcı düşərgənin - Ə.Kərimlinin sifəti. Sözsüz ki, bu cür müxalifətçiliyin sonu elə belə də olmalıdır. Bir də tarix Ə.Kərimli və onun müdafiəçilərinin kimliyini unutmur. Satqınlıq tarixən əxlaqın və mənəvi prinsiplərin aşınmasının göstəricisi kimi dəyərləndirilib. Naturasında xəyanət olan kəslər üçün isə satqınlıq etmək adi bir hal alıb. Məhz bunun nəticəsidir ki, ağlı başında, əqidəsi bütöv olan heç kim satqınları sevməyib. Satqınlara yalnız satqınlar dəstək veriblər.

Artıq əlavə şərhə ehtiyac yoxdur. Çünki tarix və onun canlı şahidləri heç nəyi və heç kimi unutmur. Necə deyərlər, hər şey elin gözü qabağındadır. Ən böyük tərəzi də, məhz odur.

**Rəfiqə HÜSEYNOVA**

# Müxalifət arxivə yola salınır

*Müxalifətin var olub-olmaması cəmiyyət üçün maraqlı deyil*

***Dağıdıcı müxalif ünsürlər hər zaman milli və dövlətçilik maraqlarına qarşı çıxıblar. Səbəb də xarici maraqlı dairələrin onları bu işə məcbur etmələridir. Yəni xarici qüvvələr müxalifət təmsilçilərindən öz məkrli istəklərini həyata keçirmək üçün bir maşa kimi istifadə edirlər.***

### "Yurddaş" Partiyasının sədri Mais Səfərli: "Nə xarici qüvvələr, nə də müxalifət Azərbaycan dövlətinin uğurlarına heç vaxt kölgə sala bilməyəcəklər"



- Dağıdıcı müxalifət partiyaları hər zaman xaricdə olan havadarlarından asılı bir vəziyyətdədirlər. Müxalifət xaricdəki "ağalarından" aldıqları maliyyə vəsaiti hesabına boş qalan ciblərini doldurmaqla məşğuldurlar. Əlbəttə ki, xarici qüvvələr də bu maliyyənin qarşılığında, onlardan Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq üçün bir vasitə kimi istifadə edirlər. Ümumiyyətlə, nə xarici qüvvələrin, nə də müxalifətçilərin nə istəmələrindən və nə etmələrindən asılı olmayaraq, onlar inkişaf etmiş güclü Azərbaycan dövlətinin uğurlarına heç vaxt kölgə sala bilməyəcəklər. Çünki bizim yolumuz dönməz və davamlıdır. Ümumiyyətlə, dağıdıcı müxalifət partiyaları 1990-cı illərdən necə yaranıblarsa, indinin özündə də həmin vəziyyətdə qalmaqdadırlar. Birmənalı şəkildə, həmin partiyalar öz tərəfdarlarını itirə-itirə getməkdədirlər. Demək olar ki, adları çəkilən partiyalar 4-5 nəfərlə qalıblar. Bütün bunlar da, onların zəif tərzdə inkişaf etməsindən xəbər verir. Ümumiyyətlə, müxalifət partiyalarının zəif olmalarının əsas səbəbi sözügedən partiyalara rəhbərlik edən liderlərin səhv siyasət aparmaları ilə bağlıdır. Bu baxımdan da, adıçəkilən partiya sədrləri öz səhvlərini, öz içərilərində, partiyalarında və fəaliyyətlərində axtarmalıdırlar. Bu səbəbdən də onların hər hansı bir uğur qazanmaları mümkün deyil. Çünki onların xalq arasında heç bir dəstəyi yoxdur.

### Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov: "Müxalifət məkrli istəyinə çata bilməyəcək"



- Artıq bir faktdır ki, 25 ildə müxalifət milli siyasi məkanda yalnız öz maraqlarının təmin olunması baxımından, fəaliyyətini qurub. Məhz adlarını müxalifət qoyan bu qaragüruhçular ölkəmizdə ictimai-siyasi proseslərdə uğur qazana bilməyiblər, ictimai dəstəkdən məhrum olublar. Demək olar ki, xarici məkrli qüvvələrin sifarişlərini yerinə yetirməklə, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa can atan müxalifət təmsilçiləri özlərinə maddi imkanlar qazandırıblar. Bir yerdə nifrət varsa, o vaxt həmin yerdə hər hansı bir irəliləyişin olmasından söhbət gedə bilməz. Yəni radikal müxalifət düşərgəsini təmsil edən qüvvələrə Azərbaycan xalqı tərəfindən nifrət var. Demək olar ki, müxalifətin var olub-olmaması cəmiyyət üçün maraqlı deyil. Belə olan halda da, yaxşı olardı ki, müxalifət sakitcə öz yerində otursun və ya siyasi prosesləri tərk etsin. Çünki onlar reallığı özündə əks etdirməyən xəyallar qurular və özləri də çox yaxşı bilirlər ki, onlar heç vaxt öz istəklərinə çatmayacaqdır. Bir sözlə, xalq onları dəstəkləmir. Belə olan halda da, onların uğur qazanaq şansları sıfıra bərabərdir.

**GÜLYANƏ**

# "Nar" Milli Mətbuat Günündə media nümayəndələrini intellektual yarışda bir araya topladı




***Ölkənin ən gənc mobil operatoru "Nar", 22 iyul - Milli Mətbuat Gününü media nümayəndələri ilə birgə qeyd edib. Mobil operator 35 media orqanını təmsil edən 80-ə qədər media nümayəndəsini artıq ənənə halını alan intellektual yarışmada bir araya toplayıb.***

Bilik yarışmasında 15 komanda iştirak edib. İntellekt yarışında artıq ikinci ildir ki, qalibiyyəti əldən buraxmayan "Komanda" komandası 1-ci yeri, "Report" İA-ni təmsil edən komanda 2-ci, "Azxəbər" komandası isə 3-cü yerləri tutublar. Qalib komandalara "Nar" tərəfindən xüsusi hədiyyələr təqdim edilib. Qeyd edək ki, yarış iştirakçılarına 7 tur boyunca ümumi biliklərlə yanaşı, milli və dünya mədəniyyətinə, tarixə, texnologiyaya aid müxtəlif çətinlik dərəcələrində suallar verilib.

"Bugün Zərdabi davamçıları olaraq sizləri intellektual yarışda bir arada görməkdən böyük qürur hissi duyuram. İctimaiyyətin məlumatlandırılmasına, maariflendirməyə, düzgün dəyərlərin təbliğinə yönəlik əvəzsiz əməyiniz üçün "Nar" adından bütün media nümayəndələrinə təşəkkür edir, məsuliyyətli və şərəfli peşə yolunuzda uğurlar diləyirəm", - deyə "Azerfon" MMC-nin İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov Milli Mətbuat günü münasibətilə keçirilən tədbirdə bildirib.

Qeyd edək ki, 22 İyul Azərbaycan Respublikası Milli Mətbuat və Jurnalistika günü kimi qeyd olunur. Bu gün milli mətbuat tarixinin başlanğıcı hesab olunan Həsən bəy Zərdabinin 1875-ci ildə təsis etdiyi "Əkinçi" qəzetininin ilk sayının nəşr edildiyi gündür.

"Nar" hər zaman elmə, təhsilə, biliyə olan marağı artırmağa səy göstərir və maariflənməni təşviq etmək məqsədilə müxtəlif sosial layihələr həyata keçirir, eyni zamanda intellektual yarışların əsas dəstəkçisi rolunda çıxış edir. Layihələr haqqında daha ətraflı məlumat üçün: https://bit.ly/2Ya4VQR

# İnsan hüquqlarını qoruma sahəsində BMT-nin müvafiq orqanları

X BMT Təhlükəsizlik Şurası (UN Security Council)

X BMT İnsan Hüquqları üzrə Ali Komissarı (UN High Commissioner for Human Rights)

X İnsan Hüquqları Komitəsi (Human Rights Committee)

X ECOSOC (Committee on Economic, Cultural and Social Rights)

X İşgəncəyə Qarşı Komitə (CAT - Committee Against Torture)

X CEDAW (Committee on the Elimination of Discrimination against Women)

X BMT İnsan Hüquqları Şurası (UN Human Rights Council)

Təhlükəsizlik Şurası TŞ BMT-nin Nizamnamə orqanı olub, bağlayıcı qərara alma səlahiyyəti olan tək orqandır. TŞ-nın əsas vəzifələrindən biri, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsidir.

BMT Nizamnaməsi, TŞ-yə aşağıdakı səlahiyyətləri bəxş edir:

X beynəlxalq sülhü təhdid edən halları araşdırmaq;

X münaqişələrin həlli üçün tövsiyə və bağlayıcı qərarlar vermək;

X digər dövlətlərə konkret bir ölkəylə hər cür əlaqələrin kəsilməsi üçün göstəriş vermək;

X lazım olan hallarda öz qərarlarının zorla yerinə yetirilməsini təmin etmək.

Təhlükəsizlik Şurası Birləşmiş Millətlər Təşkilatının bütün orqanlarının hesabatlarını dinləyir və insan hüquqları da daxil olmaqla, sülhü və təhlükəsizliyi hədələyən hər hansı təhlükə hiss etdikdə, istənilən problemlə bağlı tədbirlər görə bilər. Görə bilər dedikdə, lazımi hallarda TŞ qarışmaq məcburiyyətindədir.

Məsələ burasındadır ki, müharibə zamanlarında kütləvi şəkildə insan hüquqları pozuntuları törədilir. Məhz buna görə Təhlükəsizlik Şurası Darfur Təhlükəsizlik Şurası Birləşmiş Millətlər Təşkilatının bütün orqanlarının hesabatlarını dinləyir və insan hüquqları da daxil olmaqla, sülhü və təhlükəsizliyi hədələyən hər hansı təhlükə hiss etdikdə, istənilən problemlə bağlı tədbirlər görə bilər. Görə bilər dedikdə, lazımi hallarda, TŞ qarışmaq məcburiyyətindədir. Məsələ burasındadır ki, müharibə zamanlarında kütləvi şəkildə insan hüquqları pozuntuları törədilir. Məhz buna görə Təhlükəsizlik Şurası Darfur böhranı, Serbiya qırğını və Ruanda genosidi daxil olmaqla, bir sıra insan hüquqları pozuntularının qarşısını almaq üçün lazımi tədbirlər görməməkdə tənqid olunmuşdu.

Habelə, əgər Beynəlxalq Cinayət Məhkəməsi müxtəlif səbəblərə görə, öz yurisdiksiyasını tətbiq edə bilmirsə, (məsələn, müharibə gedən ərazidəki dövlətlər Roma Statusunu imzalamayıblarsa) Təhlükəsizlik Şurası konkret hadisənin baxılmasını məhkəməyə göndərə bilər.

İnsan Hüquqları üzrə BMT-nin Ali Komissarı və onun Ofisi İnsan Hüquqları üzrə BMT-nin Ali Komissarı, BMT Baş Katibi tərəfindən təyin olunur və BMT Baş Assambleyası tərəfindən təsdiq edilir. Vəzifəsinin icrasında BMT Baş Katibinə hesabat verir, onun muavini statusundadır. Ali Komissar İnsan Hüquqları üzrə BMT-nin Ali Komissarının Ofisinin bütün fəaliyyətlərinə görə məsuliyyət daşıyır, həmçinin də, onun administrasiyası üçün və Baş Assambleyanın 20 dekabr 1993-cü il, 48/141 saylı qərarı ilə və siyasi qərarların hazırlandığı orqanlarla bağlı digər qərarlarında, xüsusilə, ona həvalə olunmuş vəzifələri həyata keçirir; insan hüquqları sahəsində Birləşmiş Millətlər Təşkilatının siyasəti ilə bağlı Baş Katibə məsləhət verir; insan hüquqları ilə bağlı layihələrə, fəaliyyətlərə, orqanlara və təşkilatlara maddi və inzibati dəstək göstərildiyinə dair zəmanət verir; insan hüquqları orqanlarının görüşlərində və insan hüquqları ilə bağlı başqa hadisələrdə Baş Katibi təmsil edir; Baş Katib tərəfindən verilmiş xüsusi tapşırıqları yerinə yetirir. Hal-hazırkı Ali Komissar Cənubi Afrika vətəndaşı Navanethem Pillaydir. O, 1 sentyabr 2008-ci ildə 4 il müddətinə seçilmişdir. Ali Komissarın bir də icra aparatı sayılan ofisi var. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Ofisi (OHCHR) beynəlxalq hüquq və 1948-ci il Ümumdünya İnsan Hüquqları Deklarasiyası (UDHR) ilə nəzərdə tutulmuş insan hüquqlarının inkişafı və qorunması üçün fəaliyyət göstərən Birləşmiş Millətlər Agentliyidir. İsveçrədə yerləşir. Xeyli personalı var (1000-ə yaxın), illik büdcəsi də 120 million USD təşkil edir. ABŞ və başqa millətlərin təkidilə BMT Baş Assambleyası bu ofisin əsasını 1993-cü ildə qoydu. BMT Baş Katibin müavini rütbəsinə sahib olan Ali Komissar, BMT Sistemi daxilində insan hüquqlarına dair fəaliyyətləri əlaqələndirir, Cenevrədə və İsveçrədə İnsan Hüquqları Şurasına nəzarət edir.




BMT İnsan Hüquqları Şurası, BMT İnsan Hüquqları Şurası BMT sisteminə daxil olan beynəlxalq orqandır. Onun fəaliyyəti insan hüquqları pozuntularının araşdırılması ilə bağlıdır. Şura BMT İnsan Hüquqları Komissiyasının varisidir, hansı ki, öz vətəndaşları üçün insan hüquqlarını təmin etməyən üzv dövlətlərlə xeyli yumşaq davranıb, bu pozuntuları görməzlikdən gəldiyi üçün tez-tez tənqid olunmuşdur. İndi o komissiyanın əvəzinə məhz bu şura fəaliyyət göstərir.

BMT Baş Assambleyası İnsan Hüquqları Şurasının qurulmasını 15 mart 2006-cı ildə qərarlaşdırdı, bu qərara ancaq ABŞ, Marşal Adaları, Palau (Azad Assosasiya Sazişləri ilə Birləşmiş Ştatlara tabedir) və İsrail qarşı çıxmışdır. Əslində, bu dövlətlərin də qarşı çıxmasının əsas səbəblərdən biri bu idi ki, yeni şuranın üzvlərinin sayca regionlara görə bölünməsi, onlara çox da sərf eləmirdi. Rəsmi olaraq isə, ABŞ öz mövqeyini belə açıqladı ki, şura daxilində insan hüquqlarının pozuntusunun qarşısının alınması üçün kifayət qədər təminat yoxdur və bu orqan işlək olmayacaq. Əslində, bu iddia bir yerdə düzgündür.

Şuranın effektiv olmamasının əsas səbəbi ondadır ki, şura üzvləri özlərini yox, dövlətləri təmsil edirlər. Belə təmsilçilik hallarında üzvlər diplomatik davranır, diplomatik davranmaq da o mənaya gəlir ki, dolayı və yumşaq davranışlar göstərilir. Venesuela qərarın müəyyən paraqraflarına ciddi etirazlarını ifadə etdi, ona görə ki, şuranın səlahiyyətləri dövlətlərin daxili işlərinə müdaxilə etmək üçün bəhanələr tapmağa imkan verir.

İradə Cavadova, Sahib Kazımov, İnsan Hüquqlarının Müdafiəsi, BMT Sistemi, Avropa Sistemi, Ölkədaxili Mexanizmlər, Bakı 2004, s.34.

47 yerdən ibarət İnsan Hüquqları Şurası əvvəlki 53 üzvlü İnsan Hüquqları Komissiyasını əvəz etdi. Komissiya müstəqil orqan idi, ancaq şura Baş Assambleyanın köməkçi orqanı statusuna yüksəldilmişdi. Şurada 47 yer BMT-nin regional qrupları arasında aşağıdakı qaydada bölüşdürülür: 13 Afrika, 13 Asiya, 6 Şərqi Avropa üçün, 8 Latın Amerikası və Karib dənizi üçün və 7 Qərbi Avropa və başqa qruplar üçün.

Şura yaradılanda, əvvəlki komissiyada yaranan problemlərin aradan qaldırılması istənilirdi. Bu problemlərə misal gətirsək, 2003-cü ildə Liviyanın komissiyanın rəhbərliyinə seçilməsini göstərmək olar, halbuki, insan hüquqlarının vəziyyəti Liviyada heç də parlaq sayılmır. Buna görə şuranın əsasını qoyan qərarda müəyyən edildi ki, şuraya seçilən üzvlər insan hüquqlarının qorunmasında və inkişafında yüksək standartları saxlamalıdırlar" və periodik olaraq, nəzarətə tabe olacaqlar. Şuranın hər bir üzv dövləti, fərdi olaraq, və səs çoxluğu ilə (191-dən 96) gizli səslə Baş Assambleya tərəfindən seçilir (əvvəlki komissiyanın üzvlərinin seçkisi ECOSOC tərəfindən keçirilirdi). Şura üzvlüyü iki ardıcıl müddətə məhdudlaşdırılır və istənilən şura üzvü Baş Assambleyanın üçdə iki səs çoxluğu ilə, müvəqqəti olaraq kənarlaşdırıla bilər. Komissiya öz işini 16 iyun 2006-cı ildə yekunlaşdırdı, şura da 19-30 iyun 2006-cı ildə ilk iclasını keçirdi.

Şura köhnə komissiyaya görə, həqiqətən, daha aktivdir. Məsələn, 12 yanvar 2009 tarixində İnsan Hüquqları Şurası, İsrailin Qəzzaya olan hücumunu rəsmi olaraq, kəskin şəkildə pislədi, habelə, Qəzzaya oradakı insan hüquqları pozuntularını araşdırmaq üçün bir heyət göndərdi.

İnsan Hüquqları Komitəsi. Bu Komitə, Vətəndaş və Siyasi Hüquqlar haqqında Sazişin standartlarının reallaşmasını təmin edir. Sazişin 28-ci maddəsinə müvafiq olaraq, yaradılıb. Komitənin on səkkiz üzvü, Tərəf Dövlətlər haqqında mülahizələrini bildirirlər və sazişi təsdiqləmiş dövlətlərin əleyhinə olan fərdi şikayətlər barədə qərar verirlər. Komitə qərarları məcburi hüquqi qüvvəyə malik deyildir.

İnsan Hüquqları Komitəsi 18 mütəxəssisdən ibarət Birləşmiş Millətlər orqanıdır, hansı ki, Vətəndaş və Siyasi Hüquqlar haqqında Beynəlxalq Sazişə uyğun olaraq, BMT-yə üzv dövlətlər tərəfindən təqdim olunmuş beş illik hesabatları nəzərdən keçirmək üçün ildə üç dəfə görüşür.

Komitə BMT-nin insan hüquqları üzrə ayrılmış yeddi orqanından biridir.

Birinci Əlavə Protokolu imzalamış dövlətlər (hal-hazırda 104 dövlət) üzv dövlətlər daxilində şəxslərə sazişin pozulması ilə bağlı komitəyə müraciət etməyə icazə verirlər (Azərbaycan da bunların arasındadır, 29.07.2001 tarixində 162-İQ saylı qanunla ratifikasiya edib). Beləliklə, həmin ölkələr üçün İnsan Hüquqları Komitəsi insan hüquqlarının sui-istifadə hallarının beynəlxalq bərpası mexanizmi kimi fəaliyyət göstərə bilər, İnter-Amerika (Amerikadaxili) İnsan Hüquqları Məhkəməsi və ya Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən gətirilmiş regional mexanizmlər kimi.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs



## Limon qaraciyərin işini yaxşılaşdırır



Limon və onun şirəsi qaraciyərin və digər orqanların işinə müsbət təsir göstərir. "MedikForum" saytında yer alan məlumata görə, ekspertlər bu qənaətə gəliblər. Xalq təbabətində limon müxtəlif xəstəliklərdən xilas olmağın əsas çarəsi hesab edilir. Buna görə də müxtəlif dərman vasitələrinin hazırlanması zamanı immuniteti artırmaq, mədə və qaraciyər xəstəliklərini aradan qaldırmaq üçün çox vaxt limon cövhərindən istifadə edirlər.

Limonun tərkibindəki vitaminlər və minerallar orqanizmin infeksiyalara qarşı müqavimət qabiliyyətini artırmaq üçün immuniteti bərpa edir. O, toksinləri və xolesterini xaric edir, qaraciyərdə mübadilə proseslərini sürətləndirir.

Limon şirəsi qaraciyərdə mürəkkəb zülalları parçalayan fermentlər yaradır. Limon qaraciyərin sanki süzgəcdən keçirdiyi qanı durulaşdırır. Qaraciyərin işində nasazlıq yarandıqda qan laxtalanır və tromblar yaranır. Mütəxəssislər limonu ət və balıq xörəklərinə ətirli ədva kimi qatmağı, limonun mətindən və şirəsindən isə bişintilər üçün içlik kimi istifadə etməyi məsləhət görürlər. Səhərlər limonlu çay əvəzinə bir stəkan limonlu su içməyi məsləhət görürlər. Bu, bütün orqanizmi gümrahlaşdırır, piy toxumalarının parçalanması prosesini sürətləndirir.

## 51 il əvvəl yoxa çıxmış fransız qayığı tapılıb



Fransa Müdafiə Nazirliyinin təşkil etdiyi axtarış qrupu 51 il əvvəl yoxa çıxmış fransız sualtı qayığını tapıb. BBC telekanalının saytında yer alan məlumata görə, bu məlumatı Fransanın Müdafiə naziri Florens Parli özünün Twitter səhifəsində yayıb. O, hərbi sualtı qayığın tapıldığı yerin relyefini və texniki xarakteristikasını da paylaşıb.

Qeyd olunub ki, 1968-ci ilin yanvarında Fransanın cənubundakı Tulon limanının yaxınlığında yoxa çıxan "Minevre" adlanan bu sualtı qayığın göyərtəsində 52 dənizçi olub. Onun axtarışı uzun illər davam edib, lakin heç bir nəticə verməyib. Bu ilin əvvəlində xanım Parli sualtı qayığın axtarışının yenidən başlanacağı barədə bəyanat verib və itkin düşmüş dənizçilərin ailələrini də bu prosesdə iştirak etməyə dəvət edib. O, iyulun 22-də özünün Twitter səhifəsində yazıb: "Biz indicə "Minevre"nin tapılması xəbərini aldıq. Bu, böyük uğurdur. Düşünürəm ki, bu, itkin düşmüş dənizçilərin uzun illərdir yaxınlarını gözləyən ailələri üçün də mühüm xəbərdir".

Nazirin məlumatına görə, axtarış qrupu yeni texnologiyaların köməyi ilə sualtı qayığın qəzaya uğradığı yerin ətrafındakı əraziləri təhlil edib. ABŞ-ın "Ocean Discovery" şirkətinə məxsus olan sualtı gəminin köməyi ilə axtarışlara başlanılıb. Yoxa çıxmış sualtı qayıq Tulon limanından 45 kilometr aralıda 2,370 metr məsafədə aşkar olunub.

## "Barselona"dan Messiyə yeni müqavilə



"Barselona" kapitanı Lionel Messiyə yeni müqavilə təklif etməyə hazırlaşır. Qol.az-ın ESPN nəşrinə istinadən yaydığı xəbərə görə, Kataloniya klubu argentinalı superulduzun 2021-ci ilin yayında başa çatacaq sözləşməsinin müddətini daha 2 il uzatmaq niyyətindədir. Klub prezidenti Xosep Bartomeunun yaxın günlərdə müqavilənin detallarını müzakirə etmək üçün futbolçunun atası Xorxe Messi ilə bir araya gələcəyi iddia olunur. Qeyd edək ki, Messi "Barselona" ilə ilk peşəkar müqaviləsini 2004-cü ildə bağlayıb.

## Qaradağda Milli Mətbuat Günü qeyd olunub

***Dünən Milli Mətbuat Günü münasibəti ilə Qaradağ rayon icra hakimiyyətinin konfrans zalında tədbir keçirilib.***



Tədbirdə Qaradağ rayon icra hakimiyyətinin başçısı aparatın məsul işçiləri, "Azərbaycan", "Xalq", "Respublika", "İki Sahil", "Yeni Azərbaycan", "Səs", "Kaspi", "Yeni Müsavat" və digər qəzetlərin, "AzərTac", "Səs" İnformasiya Agentliklərinin, Az.TV, İctimai, ATV, Space, Lider televiziya kanallarının, "Trend", "Qafqazinfo" və digər saytların əməkdaşları iştirak edib.

Tədbiri giriş sözü ilə açan Qaradağ rayon icra hakimiyyəti başçısının birinci müavini Emil Abbasov Milli Mətbuatımızın yaranmasından 144 il ötdüyünü bildirərək, bütün mətbuat nümayəndələrini təbrik edib. Bildirib ki, "144 illik tarixi olan Azərbaycan Milli Mətbuatı özünəməxsus ənənələr yaradıb. Mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabidən başlayaraq, günümüzə qədər böyük qələm ustaları milli təfəkkürün inkişafı üçün misilsiz xidmətlər göstərərək, xalqımızın maariflənməsinə böyük töhfələr veriblər. Ümummilli Lider Heydər Əliyev demokratik dövlət quruculuğu prosesində kütləvi informasiya vasitələrinin rolunu daim yüksək qiymətləndirərək, Azərbaycanda senzuranın ləğvi və bir sıra digər tədbirlərlə mətbuatın inkişafına böyük dəstək veribdir".

Qaradağ rayon icra hakimiyyəti başçısının müavini Təranə İsmayılova Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və səyləri nəticəsində mətbuata, söz azadlığına qoyulan bütün süni maneələrin aradan qaldırıldığını, kütləvi informasiya vasitələrinin işini tənzimləyən, beynəlxalq standartlara uyğun qanunvericilik bazasının təkmilləşdirilərək KİV haqqında Qanunun təsdiq olunmasını vurğulayıb. Qeyd edib ki, bu gün də ölkə Prezidenti İlham Əliyevin diqqəti və qayğısı sayəsində mətbuatın maddi-texniki bazasının gücləndirildiyini, mətbuatda çalışan insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirildiyini söyləyib: "Mətbuatımızın inkişafına, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş siyasət bu gün Möhtərəm Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə və daha geniş miqyasda davam etdirilir. Dövlət başçımızın Sərəncamına əsasən, KİV işçiləri üçün mərhələli şəkildə yaşayış binalarının inşa edilərək istifadəyə verilməsi bunun bariz nümunəsidir".

Tədbirin sonunda Qaradağ rayon icra hakimiyyəti adından KİV nümayəndələrinə hədiyyələr təqdim olunub.

***R.HÜSEYNOVA***

## "Qəbələ" və "Neftçi"nin potensial rəqibləri açıqlandı




Dünən Avropa Liqasında da 3-cü təsnifat mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində keçirilən tədbirdə ölkəmizin Avroliqadakı təmsilçiləri "Qəbələ" və "Neftçi"nin də potensial rəqibi məlum olub. "Qırmızı-qaralar" 2-ci mərhələdə Tbilisi "Dinamo"sunu keçsə, Hollandiyanın "Feyenoord" klubu ilə qarşılaşacaq. "Neftçi" isə "Arsenal"ı (Rusiya) mübarizədən kənarlaşdırsa, İsrailin "Bney Yehuda" klubu ilə üz-üzə gələcək. İkinci mərhələni keçəcəyi təqdirdə "Qəbələ" 3-cü mərhələyə səfərdə, "Neftçi" evdə başlayacaq.

**"Arsenal" (Tula, Rusiya)/"Neftçi" (Azərbaycan) cütünün qalibi - "Bney Yehuda" (İsrail)**

**"Feyenoord" (Hollandiya)/"Qəbələ" (Azərbaycan) - "Dinamo" (Tbilisi, Gürcüstan)**

Qeyd edək ki, Avropa Liqasında 3-cü təsnifat mərhələsinin ilk oyunları avqustun 8-də, cavab qarşılaşmaları isə 15-də keçiriləcək.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**